YENİ AZƏRBAYCAN

29 iyul 2025-ci il, çərşənbə axşamı
№ 130 (6957)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.



Milli azadlıqdan şirin nemət yoxdur!

# İki qardaş ölkə - Türk dünyasının Gücü!



## Azərbaycanla Türkiyə bölgədəki proseslərlə bağlı koordinasiyalı fəaliyyət göstərir

Bax səh. 2

## 2027-2030-cu illərin sosial-iqtisadi hədəfləri...

Bax səh. 4

## Süni intellekt quruculuğunda yeni dövr

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ISO/IEC 42001:2025 "İnformasiya texnologiyası - Süni intellekt - İdarəetmə sistemi" dövlət standartı qəbul edilib. Yeni standart süni intellekt texnologiyalarının tətbiqində risklərin idarə olunması, etik prinsiplərə riayət edilməsi və şəffaflığın qorunması tələblərini müəyyən edir. Eyni zamanda, süni intellekt sistemlərinin qurulması, tətbiqi, saxlanılması və davamlı olaraq təkmilləşdirilməsinə dair ən müasir alqoritmləri və yanaşmaları əhatə edir. Yeni dövlət standartı "İnformasiya-kommunikasiya texnologiyaları" standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 05) müzakirəyə çıxarılıb və İnstitut tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Yeni dövlət standartı Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.5-ci yarımbəndinin icrası məqsədilə qəbul edilib.

Müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Bu ekosistemin əsas hərəkətverici qüvvəsi kimi süni intellekt daha ön plana...

Bax səh. 2



## Sülhə "konqres maneəsi"

Bax səh. 3

## YAP Mərkəzi Aparatında görüş

Bax səh. 5

## Türkiyənin qüruru...

Bax səh. 6

## "Ən böyük müqavilə" imzalandı

Bax səh. 5

## Aİ Kiyevi 1,5 milyard avrodan məhrum edir...

Bax səh. 6

## Ukraynaya ilk dəfə...

Ukraynanın "Naftogaz" Şirkətlər Qrupu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) qrupuna daxil olan "SOCAR Energy Ukraine" şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında ilk müqavilə imzalayıb. Sazişə əsasən, ilk dəfə Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçiriləcək. Qaz nəqlini mühüm hadisə kimi dəyərləndirən "Naftogaz"ın baş direktoru Sergey Koretski bildirib ki, qaz tədarükü həcm baxımından kiçik olsa da, strateji cəhətdən mühüm addımdır və uzunmüddətli əməkdaşlığa yol açır. Saziş, həmçinin tədarük mənbələrinin şaxələndirilməsi və Ukraynanın enerji təhlükəsizliyinin gücləndirilməsinin daha bir nümunəsidir.

Qeyd edək ki, 2025-ci il yanvarın 1-dən Rusiya ilə Ukrayna arasındakı qaz tranzitinə dair dövlətlərarası sazişin hüquqi qüvvəsi başa çatıb və rəsmi Kiyev 5 il əvvəl "Qazprom" ilə "Naftogaz" arasında imzalanmış sazişin müddətini uzatmayıb. Nəticədə Rusiya qazının Ukrayna üzərindən Avropaya nəqli dayanıb, eyni zamanda, Ukraynaya rus qazının tədarükü tamamilə qapadılıb. Bu qərar Ukraynanın mövcud qaz şəbəkələri infrastrukturuna və qaz anbarlarına mənfi təsirlər göstərməyə başlayıb. Çünki qaz ekosistemi uzun müddət yanacaq olmadığı halda infrastrukturun sıradan çıxması təhlükəsi meydana çıxır. Ötən müddətdə Ukrayna həmin sistemin işləkliyin qoruyub saxlamaq üçün müəyyən resurslar axtarıb tapsa da, dayanıqlı yanacaq əldə edə bilməyib. Ona görə də, əsas mənbələrdən biri kimi Azərbaycanla əməkdaşlığa xüsusi önəm...

Bax səh. 4

## Kaliningrad blokadaya alına bilər



Bax səh. 7

## Yüz illik ədavət...



Bax səh. 7

# İki qardaş ölkə - Türk dünyasının Gücü!

## Azərbaycanla Türkiyə bölgədəki proseslərlə bağlı koordinasiyalı fəaliyyət göstərir

Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. "Bir millət, iki dövlət" prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir.



### XİN başçıları nələri müzakirə edib?

Bu səmimi, qırılmaz əlaqələr iki ölkənin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə sıx əməkdaşlığı ilə yanaşı, ortaq mədəni dəyərlərin qorunması və inkişaf etdirilməsi istiqamətində də özünü göstərir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək, regional və qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda, hər iki dövlət Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Xüsusən də hər iki ölkənin humanitar fəlakətlər zamanı bir-birinə dəstəyi, qarşılıqlı yardımı və mənəvi həmrəyliyi bu münasibətlərin nə qədər dərin və sarsılmaz olduğunu bir daha sübut edir. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib.

Regionun güclü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər. Bu baxımdan, bir neçə gün öncə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin XİN başçısı Hakan Fidan arasında telefon danışığı xüsusi vurğulanmalıdır. Telefon söhbətində Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunub. Bununla yanaşı, regional və beynəlxalq müstəvidə müşahidə olunan təhlükəsizlik problemləri nəzərdən keçirilib. Azərbaycan-Türkiyə qardaşlığına əsaslanan müttəfiqlik münasibətlərinin bütün səviyyə və platformalarda uğurla davam etdirildiyi məmnunluqla qeyd edilib.

C.Bayramov həmkarını Azərbaycan-Ermənistan normallaşma prosesi və onun müxtəlif aspektləri, sülh sazişi üzrə cari vəziyyət və perspektivlər, habelə mövcud maneələr və onların həlli istiqamətində səylər barədə ətraflı məlumatlandırıb. Telefon danışığında, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, ölkələrimiz arasında enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib. Bununla yanaşı, hərbi sahədə də tərəfdaşlıq möhkəm təməl üzərində

### Şuşa Bəyannaməsi münasibətlərimizin zirvəsini təşkil edir

qurulub. Türkiyə Azərbaycanın müdafiə potensialının artırılması üçün hərbi təlimlər və texniki dəstək verərək, hərbi əməkdaşlığı daha yüksək səviyyəyə çatdırıb. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi iki ölkə arasındakı siyasi və hərbi münasibətləri daha da möhkəmləndirib. 2021-ci ilin iyun ayında liderlər tərəfindən imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir.

### Beynəlxalq müstəvidə qarşılıqlı dəstək




Azərbaycanla Türkiyə arasında hərbi və təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq yalnız iki ölkənin milli maraqları çərçivəsində deyil, bütövlükdə, regionun sabitliyinin, təhlükəsizliyinin təmin olunması baxımından da xüsusi önəm daşıyır. Bu tərəfdaşlıq əsrlər boyu qardaş xalqlarmızın ortaq iradəsinin və siyasi uzaqgörənliyinin nəticəsi kimi müasir dövrdə yeni məzmun və mahiyyət qazanıb. İki dövlət müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq edərək, regional və qlobal təhlükəsizlik təşəbbüslərində birgə mövqe sərgiləyir. Xüsusilə Azərbaycanın 30 il davam edən işğala son qoyduğu İkinci Qarabağ müharibəsi dövründə Türkiyənin göstərdiyi birmənalı siyasi dəstək bu əlaqələrin sarsılmazlığını və qardaşlığın gücünü bütün dünyaya nümayiş etdirdi. Bununla yanaşı, hərbi əməkdaşlığın praktiki istiqaməti də daim genişlənməkdədir. Ölkəmizin müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Azərbaycanın və Türkiyənin Silahlı Qüvvələrinin birgə iştirakı hər iki ordunun döyüş hazırlığının artırılmasına, koordinasiyanın güclənməsinə və regional təhlükəsizliyin təmininə mühüm töhfə verir. Bu təlimlər yalnız ikitərəfli səviyyədə deyil, həm də NATO ilə əməkdaşlıq çərçivəsində aparılan işlərin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Bundan əlavə, müdafiə sənayesi sahəsində birgə layihələr, müasir silah sistemlərinin tədarükü və texniki təchizatın təkmilləşdirilməsi istiqamətində atılan addımlar qardaş ölkələrimizin müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edir. Bu əməkdaşlıq Azərbaycanın və Türkiyənin regional təhlükəsizlik məsələlərindəki həmrəyliyini gücləndirməklə yanaşı, eyni zamanda, Cənubi Qafqaz və Orta Asiya regionlarında sülhün, sabitliyin təmin olunmasında mühüm rol oynayır.

Bütövlükdə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə artan gərginlik, xüsusilə Suriyada yaranmış vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirir. Bu baxımdan, iki ölkənin XİN başçılarının telefon danışığında aparılan müzakirələr böyük əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

# Süni intellekt quruculuğunda yeni dövr

## Yeni standartın qəbul olunması strateji məqsədlərə çatmağa xidmət edir

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ISO/IEC 42001:2025 "İnformasiya texnologiyası - Süni intellekt - İdarəetmə sistemi" dövlət standartı qəbul edilib. Yeni standart süni intellekt texnologiyalarının tətbiqində risklərin idarə olunması, etik prinsiplərə riayət edilməsi və şəffaflığın qorunması tələblərini müəyyən edir. Eyni zamanda, süni intellekt sistemlərinin qurulması, tətbiqi, saxlanılması və davamlı olaraq təkmilləşdirilməsinə dair ən müasir alqoritmləri və yanaşmaları əhatə edir. Yeni dövlət standartı "İnformasiya-kommunikasiya texnologiyaları" standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 05) müzakirəyə çıxarılıb və İnstitut tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Yeni dövlət standartı Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.5-ci yarımbəndinin icrası məqsədilə qəbul edilib.

### Süni intellekt dövlət-özəl sektor əməkdaşlığını təşviq edir

Müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Bu ekosistemin əsas hərəkətverici qüvvəsi kimi süni intellekt daha ön plana çıxmaqdadır. Süni intellekt proqramları danışa və hərəkət edə bilən robot kimi hər gün gündəlik həyatın ayrılmaz texnologiyasına çevrilib.

Hazırda ölkəmizdə süni intellekt müxtəlif sahələrdə, o cümlədən sənaye, energetika, kənd təsərrüfatı, SOCAR-ın müəssisələri və sənaye parkları, futbol, güləş, cudo və digər sahələrdə daha geniş tətbiq edilir. Bundan başqa, müxtəlif biznes layihələrində, tikinti və texnologiyalar sahələrində süni intellekt və robotlar vasitəsilə müxtəlif layihələrin icrası həyata keçirilir. Bununla yanaşı, gömrük məntəqələrində xüsusi kompüterlər və kameralar vasitəsilə məhsulların skan olunması və gömrük araşdırmalarının süni intellekt əsasında aparılması istiqamətində işlər gedir. Azərbaycan dilinin korpusunun yaradılması, çağrı mərkəzlərində süni intellekt vasitəsilə səsin, yazının tanınması və insanlara cavab verilməsi, generativ əsaslı xüsusi mobil tətbiqlər vasitəsilə insanlar arasında ünsiyyətin qurulması və məlumat mübadilələrin qurulması istiqamətində də işlər aparılır.

Azərbaycan aparıcı beynəlxalq rəqəmsal texnologiya şirkətləri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətdə onlayn təhsil platformalarından biri olan "Coursera" ilə qurulmuş əməkdaşlıq çərçivəsində minlərlə vətəndaşımız faydalanıb və süni intellekt sahəsində innovasiyaları təşviq edən 42 ölkə və 118 proqram arasında qalib olub. Həmçinin Azərbaycan dilində generativ süni intellekt və böyük dil modelləri var ki, bu da innovativ təşəbbüsləri və ideyaları inkişaf etdirməyə imkan verir. Təkcə, "Coursera" platformasındakı 20 kursun təşkili "DeepFake" texnologiyası vasitəsilə Azərbaycan dilinə tərcüməyə imkan verəcək.

Ölkəmiz süni intellekt sahəsində Estoniya, Danimarka, İsveçrə və digər ölkələrlə də faydalı əməkdaşlıq quraraq müasir rəqəmsal innovasiyaların yeni modellərin sənayeyə, elm və təhsilə gətirilməsinə xüsusi diqqət yetirir. Bu sahədə ən inikal layihələrdən biri hesab edilən "E-Twinning" layihəsi çərçivəsində ortaq təhsil layihələrinin yaradılması süni intellekt sahəsində şagirdlərin proqramlaşdırma bacarıqlarının inkişafına və yeni texnologiyalar üzrə biliklərinin formalaşmasında müstəsna rol oynayacaq.

### Rəqəmsal iqtisadiyyatın süni zəka modeli

Robot texnologiyaları qlobal ÜDM-in artmasına, inkişaf etmiş ölkələrin milli məhsul istehsalında əsas əlavə dəyər yaradan sahələrdən birinə çevrilməkdədir. Yaponiya və Çin iqtisadiyyatında yaranan əlavə dəyərin təxminən 1 faizə yaxını bu sektorun payına düşür. 2030-cu ilədək süni intellekt sahəsində Çinin gəliri təxminən 60 milyard dollar təşkil edəcək.

Bu baxımdan Azərbaycan da qlobal rəqəmsal çağırışlardan geri qalmamaq üçün özünün strateji konseptini müəyyən edir. Azərbaycan hökumətinin hazırladığı yeni rəqəmsal iqtisadiyyat strategiyasında da süni intellektin inkişafına dair hədəf prioritetləri nəzərdə tutulub. Yeni dövrdə qurulacaq ekosistem startap, inkubasiya və akselerasiya mərkəzləri, vençur və kraudfandinq institutları və s. texnoloji tutumlu sahələrə söykənəcək. Bu infrastrukturu qurmaq üçün Mərkəzi Bank Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ötən il Anlaşma Memorandumu imzalayıb və sənəd çərçivəsində süni intellekt sahəsində layihələrin və ideyalara maliyyə dəstəyinin verilməsi nəzərdə tutulur. Bu platforma həm də süni intellektə əsaslanan startapların və şirkətlərin Azərbaycana cəlb edilməsi, ölkəmizin startaplarının xarici tərəfdaşlarla əlaqələrinin qurulması və əlavə dəyər yaradan milli sektorun möhkəmlənməsinə xidmət edir.

### 4,4 milyard dollar dividend gözləntisi

Respublikamız 2040-cı ilə qədər iqtisadi artımın sürətləndirilməsində süni intellektin imkanlarından istifadə etməyi planlaşdırır və bu istiqamətdə beynəlxalq




təşkilatlar və konsaltinq şirkətlərlə birgə layihələr icra etməyi düşünür. Qiymətləndirmələrə görə, Azərbaycan dilində generativ süni intellekt ölkə iqtisadiyyatına əlavə 4,4 milyard dollar gəlir gətirəcək. Bundan əlavə, böyük həcmli məlumatları generasiya edə biləcək rəqəmsal proqramın istifadəyə verilməsi bu potensialı daha da böyüdərək əlavə dəyərin həcmlərini də artıra bilər.

Ötən həftə Bakıda keçirilən "INMerge İnnovasiya Sammiti" çərçivəsində aparılan səmərəli müzakirələr və rəqəmsal icmanın nümayəndələri arasında məsləhətləşmələrdən sonda imzalanmış sənədlər də ölkəmizin süni intellekt quruculuğu yönündə iradəsini nümayiş etdirir. Bir neçə gün əvvəl Azərbaycanın "Epoint" startapı ilə Gürcüstanın "CityPay" startapı arasında imzalanmış memorandum isə Cənubi Qafqazda süni zəka formatının inkişafı üçün təməllərdən biri hesab edilə bilər.

*E.CƏFƏRLİ*

# Sülhə “konqres maneəsi”

Xaricdəki erməni lobbisinə bağlı olan dairələr təxminən otuz ili əhatə edən işğal dövründə, postmüharibə mərhələsində dəfələrlə Azərbaycana qarşı qərəzli kampaniyalar təşkil ediblər, ayrı-ayrı Avropa və ABŞ təsisatlarında ölkəmiz əleyhinə həqiqətdən uzaq qətnamələr qəbul edilməsinə nail olublar. Onlar öz çirkin fəaliyyətlərini yenə də davam etdirirlər. Erməni lobbisinin anti-Azərbaycan kampaniyası səngimir.Yenə də Avropada, Amerika Birləşmiş Ştatlarında ələbaxan konqresmenlər, senatorlar, diplomatlar pulla ələ alınırlar. Geniş imkanlara, maliyyə qaynaqlarına malik olan erməni lobbisi onlara qrantlar, bahalı hədiyyələr müqabilində sifarişlər verir və Azərbaycan əleyhinə fəaliyyətlərə sövq edir.




## 87 konqresmen Trampın sülh çağırışına qarşı

### Konqresmenlər sülh prosesini pozmağa səfərbər ediliblər

Azərbaycanın 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı parlaq qələbələr Cənubi Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün yeni fürsətlər açıb. Regionun gələcəyi üçün bu fürsətlər şans kimi dəyərləndirilməli və istifadə olunmalıdır. Qalib Azərbaycan məhz buna çalışır. Ölkəmizin təşəbbüsü ilə postmüharibə dövründə sülh prosesinə start verilib. Başlanğıcda bu proses çox ləng gedirdi ki, bunun da əsas səbəbi Ermənistanda revanşist qüvvələrin mövcud olması, həmçinin Nikol Paşinyan iqtidarının zaman-zaman manipulyasiyalara əl atması idi. Həmçinin xaricdəki bəzi qüvvələr, regionda marağı olan ayrı-ayrı güc mərkəzləri də Ermənistan rəhbərliyinə təzyiq göstərməklə N.Paşinyan komandasını tənzimləmə prosesindən məsafədə dayanmağa məcbur edirdi. Ancaq Azərbaycanın davamlı səyləri sayəsində regionda maraqlarını təmin etməyə çalışan vasitəçilər sülh prosesindən kənarlaşdırılıblar. Artıq xeyli müddətdir ki, danışıqlar, müzakirələr ikitərəfli formatda aparılır. Nəticələr, əldə olunan razılaşmalar ikitərəfli formatın ən doğru seçim olduğunu təsdiqləyir. Xatırladaq ki, ikitərəfli formatda aparılan danışıqların nəticəsi olaraq sərhədlərin bir hissəsi delimitasiya və demarkasiya olunub, həmçinin böyük sülh sazişi üzrə bütün bəndlər razılaşdırlıb. Bir qədər bundan əvvəl Azərbaycanın və Ermənistanın liderləri Əbu-Dabidə bir araya gəldilər. Bütün bunlar ikitərəfli formatın nə qədər səmərəli olduğunu əyani şəkildə təsdiqləyir. Hazırda onilliklər ərzində qarşıdurmada olan Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhə yaxındırlar. İndiki mərhələdə Ermənistan Azərbaycanın iki haqlı tələbini yerinə yetirməlidir. Rəsmi İrəvan həm ölkəmizə qarşı ərazi iddialarını özündə ehtiva edən müddəaların yer aldığı konstitusiyanı dəyişməlidir, həm də de-fakto mövcud olmayan Minsk qrupunun de-yure də ləğv edilməsinə razılığını bildirməlidir. Bu iki tələb yerinə yetirildikdən sonra sülh prosesində bütün maneələr aradan qalxmış olacaq.

Təbii ki, xarici güclər, o cümlədən də erməni lobbisi proseslərin onların nəzarətindən çıxması ilə barışa bilmirlər. Bunun təsdiqi olaraq Birləşmiş Ştatlardakı erməni lobbisi növbəti dəfə yemlədikləri konqresmenləri Azərbaycanla Ermənistan arasında sülh prosesini pozmaq üçün səfərbər edib. İddialara görə, 87 konqresmen ABŞ Prezidenti Donald Trampın administrasiyasına müraciət edib. Onlar Ağ Evin mövqeyinə zidd çıxaraq Qarabağı könüllü tərk edən ermənilərin bölgəyə qayıtmasına dəstək verilməsinə çağırıblar.

Təzada bir baxın. Otuz il ərzində region təhdid altında saxlayan münaqişə həllini tapıb və artıq keçmişdə qalıb. Qarabağdan bir erməni ailəsi belə zorla çıxarılmayıb. Bu gün Ermənistan rəhbərliyi Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Buradan gedən ermənilərin geri qaytarılması ilə bağlı hər hansı bir masada müzakirələr aparılmır. Belə olan halda amerikalı konqresmenlərin artıq keçmiş olan bir məsələni yenidən gündəmə gətirmək istəklərinin məntiqi əsla başa düşülmür. Hər iki palatadan olan konqresmenlərin imzaladığı “sənəd” Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi görüşünün nəticələrini heçə endirməyə yönəlib. Görünən odur ki, erməni lobbisini həm Azərbaycanın, həm də Ermənistanın Əbu-Dabi danışıqlarından razılıqla ayrılması və bundan sonra tərəflərin vasitəçiyə ehtiyacı olmadığını bildirmələri narahat edib.

Bəs siyahıda kimlərin adları var? Bu dəfə də siyahıdan bədnam xorun eyni üzvlərinin adları keçir - Frenk Pallone, Qas Bilirakis, Bred Şerman və Devid Valadaon. Bu adların hər biri Azərbaycana və Türkiyəyə yaxşı tanışdır. Onlar erməni lobbisinin bütün anti-Azərbaycan təşəbbüs və təbliğat kampaniyalarında öndə gediblər. Onlar Azərbaycan torpaqlarının işğal altında olduğu illərdə ikili standartlardan çıxış etməklə Ermənistana dəstək göstərirdilər, ilhaqa, təcavüzə özlərisayağı haqq qazandırırdılar, indi fərqli mövqedədirlər, valın üzünü dəyişiblər. Hazırda onları əndişələndirən əsas məsələlərdən biri Ermənistan hakimiyyətinin bölgədə sülh təşəbbüslərinə qoşulmasıdır. Halbuki, Ermənistan rəhbərliyinin Azərbaycanın sülh təşəbbüsünə qoşulmaqdan başqa çarəsi yoxdur. Əks halda bu ölkəni daha böyük fəlakət gözləyir, hətta Ermənistanın olmayan dövlətçiliyini tam itirməsi, vassala çevrilməsi perspektivi də tam realdır. Bunu dəyərləndirən N.Paşinyan iqtidarı ikitərəfli formatda danışıqların aparılmasına razılığını bildirib.

Məlumdur ki, Ermənistanla Azərbaycan arasında sülh prosesinə, bölgədə əmin-amanlığa qarşı çıxan əsas iki qüvvə - erməni lobbisi və erməni kilsəsi olub. Azərbaycanafob ideyalar kilsədə hazırlanaraq Ermənistan cəmiyyətinə ötürülüb. Kilsə tarix boyunca ermənilərdə Azərbaycana və Türkiyəyə qarşı nifrət aşılayıb. Erməni lobbisi də bu zərərli ideyaların həyata keçməsinə maliyyə dəstəyi göstərib. Həqiqətləri dərk edən Baş nazir N.Paşinyan indi bu qüvvələrə qarşı total mübarizəyə start verib. N.Paşinyan həm kilsənin, həm də erməni lobbisinin Ermənistan cəmiyyətinə təsirlərini azaltmaq üçün hücuma keçib. Erməni diasporu həmişə Ermənistanı müharibəyə sürükləyib, bunun üçün maliyyə və siyasi dəstək verib. Bunu da ilk başa düşən Paşinyan olub və o, xalqını bu həqiqəti başa düşməyə hazırlayır.Artıq erməni mifləri bir-birinin ardınca dağılır.





### 907-ci düzəlişi qəbul etdirənlərin sələfləri

Bədnam konqresmenlərin dosyesi çirkin əməllərlə zəngindir. Azərbaycana qarşı antipatiyasını heç vaxt gizlətməyən, ölkəmizi bütün ağılasığmaz günahlarda ittiham etməyi sevən Pallonenin erməni lobbisindən maliyyə dəstəyi aldığı gizli bir məsələ deyil. Bunu həm Ermənistanda, həm də ABŞ-da yaxşı bilirlər. Pallone ABŞ Konqresinin irqçi düşüncəli, korrupsiyaya uğramış üzvü kimi tanınır. O, COP29-da iştirak üçün Azərbaycana səfəri zamanı ölkəmizə böhtanlar atmağa çalışması ilə yadda qalmışdı. Bu şəxs onilliklərdir ki, erməni lobbisi ilə qeyri-şəffaf əlaqələr quraraq Azərbaycana və regionda sülhün bərqərar olunmasına qarşı sistematik fəaliyyət göstərib. Sözügedən konqresmen Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü, azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı, kütləvi qətliam, mədəni irsin dağıdılması kimi cinayətlərini dəstəkləyib, azərbaycanlılara qarşı etnik və dini əsaslı nifrət çağırışları edib.

ABŞ-da belə bədnam konqresmenlər çoxdur. Adam Şiff adlı konqresmen də onların sırasında yer alır. O da zaman-zaman işğalçı Ermənistanı dəstəkləyən çağırışlarla gündəmə gəlib. Son olaraq isə bu konqresmen dövlət katibinə “Dağlıq Qarabağda nəsli kəsilməkdə olan erməni irsini qorumaq lazımdır” məzmunlu məktub ünvanlayıb...

Anti-Azərbaycan əleyhinə kampaniyalarda yer alan bədnam konqresmenlər həmçinin ABŞ qanunlarını pozmaları ilə də, necə deyərlər, ad çıxarıblar. Xatırladaq ki, bir qədər bundan əvvəl D.Tramp “Truth” sosial şəbəkəsindəki paylaşımında Kaliforniyadan seçilmiş konqresmen Adam Şiffi maliyyə fırıldağında ittiham edib. Tramp bildirib ki, Şiff ipoteka fırıldağı ilə ABŞ-ı aldadıb.

“Adam Şiffin fırıldaqçı olduğunu hər zaman düşünmüşdüm. İndi isə öyrəndim ki, ‘Fannie Mae’ maliyyə cinayətləri bölməsi onun mümkün ipoteka fırıldağı ilə məşğul olduğunu müəyyən edib. O, Merilenddə əsas yaşayış ünvanı göstərməklə daha ucuz ipoteka əldə etməyə çalışıb və bununla Amerikanı talayıb. Halbuki o, Kaliforniyada yaşamalıdır, çünki oradan konqresmen seçilib”, - deyə Tramp qeyd edib.

Tramp vurğulayıb ki, ipoteka fırıldağı ciddi cinayətdir və indi senator olan Adam Şiff bu əməlinə görə məsuliyyət daşımalıdır.

Bəli, naxələf elə hər yerdə naxələfdir. Belələrinin milli kimliyi olmur. Onlar pula, maddi maraqlara satılanlardırlar. Pallonelər, adam şifflər xələflərinin əməllərini davam etdirirlər. Onlar 1992-ci ildə Azərbaycana qarşı 907-ci düzəlişi qəbul edənlərin sələfləridirlər. Xələfləri o vaxt Ermənistanın işğalçılıq siyasətini dəstəkləməklə qanlı müharibəyə rəvac vermişdilər. Bu gün də eyni qüvvələr münaqişənin bərpası və sülhə imkan verilməməsi üçün çalışırlar.

### Trampın Cənubi Qafqazda sülh prosesinə töhfə vermək planlarına açıq təhdid

Baş verənlərdən o qənaət hasil olur ki, erməni lobbisi üçün ABŞ Prezidenti Donald Tramp ən ciddi təhlükə kimi görülür. Xəbər verildiyi kimi, Tramp Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşıb. Dövlət başçısı İlham Əliyev də öz növbəsində Donald Trampa təşəkkürünü bildirib.

Azərbaycan Prezidenti III Şuşa Qlobal Media Forumunda Donald Tramp haqqında çox müsbət fikirlər səsləndirib. Onun ifadə etdiyi fikirlər Azərbaycanın ABŞ ilə tərəfdaşlığa verdiyi önəmin göstəricisidir. Yeri gəlmişkən, Tramp da ilk dəfə idi ki, Cənubi Qafqaz ölkəsinin bir liderinin çıxışını özünün sosial şəbəkə hesabında paylaşırdı. Bu münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğundan xəbər verir. Xatırladaq ki, D.Tramp ilk prezidentliyi dövründə də Ermənistan-Azərbaycan münaqişəsinə neytral yanaşma sərgiləyib, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın öz ərazilərini azad etməsinə qarşı çıxmayıb. Bu da erməni lobbisinin narazılığına səbəb olub.

Beləliklə, ermənipərəsət konqresmenlərin bəyanatı, ilk növbədə, Prezident Trampın Cənubi Qafqazda sülhə töhfə vermək planlarına təhdiddir. Hədəf isə bəllidir - yenidən münaqişəni alovlandırmaq, Trampın dəstək verdiyi sülh gündəliyinə pəl vurmaq. Ancaq bədxahlar xəbis niyyətlərini gerçəkləşdirə bilməyəcəklər. Artıq onların qatarı gedib. Regionda sülh prosesi dönməzdir.

*Mübariz FEYİZLİ*

# 2027-2030-cu illərin sosial-iqtisadi hədəfləri...

## Yeni dördillik inkişaf strategiyası üzrə hazırlıqlara başlanılıb

**Maliyyə Nazirliyində "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılmış "Makro-fiskal dayanıqlıq" üzrə Alt İşçi qrupun ilk iclası keçirilib. Maliyyə naziri və Alt İşçi qrupun rəhbəri Sahil Babayev bildirib ki, dövlət başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" başlıca prioritetlərdən biri kimi müəyyən edilib. Bu çərçivədə, "daxili və xarici təsirlərə dayanıqlıq" ölkənin əsas uzunmüddətli inkişaf istiqamətlərindən biri kimi önə çıxır.**

**Nazir fiskal dayanıqlığın təmin olunması, strateji valyuta ehtiyatlarının qorunması və dövlət maliyyəsinin, o cümlədən dövlət borcunun səmərəli idarə olunmasının əhəmiyyətini vurğulayıb. O, həmçinin qeyd edib ki, 2022-2026-cı illəri əhatə edən cari sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulmuş tədbirlər uğurla icra olunmaqdadır.**

**İclasda 2027-2030-cu illəri əhatə edən yeni strategiyanın hazırlanması ilə bağlı ilkin istiqamətlər, növbəti addımlar və tədbirlər ətrafında müzakirələr aparılıb. Eyni zamanda, müvafiq dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi və fəaliyyətlərin koordinasiyalı şəkildə davam etdirilməsi barədə razılıq əldə olunub. Yeni strategiya sənədi mövcud maliyyə imkanları nəzərə alınmaqla hədəflərin realizasiyası üçün nəzərdə tutulan tədbirlərin real, dəqiq və ölçülə bilən indikatorlara söykənir. Strategiyanın hazırlanması məqsədilə 9 alt işçi qrup yaradılıb.**

### Yeni hədəflər və güc arxitekturası

Azərbaycan qalib ölkə kimi arxada qoyduğumuz son 5 ildə qeyri-neft sektorunda önəmli irəliləyişlər əldə edib. İşğaldan azad edilmiş ərazilərimizin sürətli reinteqrasiyası, enerji istiqaməti üzrə beynəlxalq mövqeyin güclənməsi və "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi istiqamətində mühüm nailiyyətlərə imza atıb. Bütün bunlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin özünü doğrultduğunu bir daha sübut edir. Bu inkişaf modelində əsas diqqət Azərbaycan vətəndaşının rifahına və təhlükəsiz gələcəyinə yönəlib.

Qarşıda isə yeni hədəflər və güc arxitekturası var. Respublikamız 44 günlük müharibə və pandemiyadan sonra yaranmış vəziyyətə, yeni çağırış və şərtlərə, habelə formalaşan əlavə milli resurslara əsaslanaraq 2021-2030-cu illəri əhatə edən strateji hədəflər müəyyənləşdirib. Həmin strateji hədəflər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" konsepsiyasının 5 çərçivə baxışına əsaslanır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, son illərdə əldə olunmuş sosial-iqtisadi nailiyyətlərin davamlı inkişafının təmin edilməsi, birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, əlverişli biznes mühitinin daha da gücləndirilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun artırılması, eləcə də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin olunması üçün məqsədyönlü siyasət və islahat istiqamətlərinin müəyyənləşdirilməsi vacib hesab olunur. Strategiyanın həyata keçirilməsi üçün indiyədək dövlət büdcəsindən 7 milyard manatdan çox vəsait ayrılıb, nəzərdə tutulmuş tapşırıqların təqribən 80 faizi icra olunub.

### İnkişafın mərkəzi - qeyri-neft sektoru

Növbəti beşillikdə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğu, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin möhkəmləndirilməsi, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması da əsas hədəflərdəndir. Hökumət hesab edir ki, iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir. İqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır.

Yeni prinsiplərə əsasən, özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalı, yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilməlidir. Həmçinin biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır. Vergi və gömrük siyasəti dövlət büdcəsinin xərclərinin təmin edilməsi üçün adekvat imkanlar yaratmaqla yanaşı, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət etməlidir.



### Dayanıqlı maliyyələşmənin təşviqi

İqtisadiyyatda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapital və sığorta bazarının inkişafının da sürətləndirilməsi müasir çağırışlar sırasındadır. Bu yanaşmaya əsasən, milli bank sektorunun dayanıqlığı təmin olunması, ona olan etimad yüksəlməsi, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payının artırılması və sahibkarlıq fəaliyyətinin inkişafına təkan verməsi nəzərdə tutulub. Maliyyə sektorunun "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"na əsasən, maliyyə alətlərinin diversifikasiyası və dayanıqlı maliyyələşmənin təşviqi yolu ilə ev təsərrüfatlarını və bizneslərin maliyyələşdirilməsi davam etdiriləcək. Maliyyə sektoru maliyyənin əlçatanlığını və dərinliyini artırmaq üçün ənənəvi kanallardan rəqəmsal maliyyə vasitəçiliyinə keçməyə can atır. Bu, maliyyə inklüzivliyinə böyük təsir edib və edəcək. Ev təsərrüfatlarının, bizneslərin maliyyə savadlılığının və biliklərinin artırılması da əsas prioritetlərdən biri olacaq. Eləcə də bank sektorunun dayanıqlılığının gücləndirilməsi, sığorta, qiymətli kağızlar və ödəniş sektorlarının inkişafı maliyyə sektorunun iqtisadiyyatın maliyyələşdirilməsində artan rolunu dəstəkləyəcək. Yeni hədəflərə yüksək rəqabət üstünlüyünə malik iqtisadi sektorlara maliyyələşdirməni gücləndirmək və yönəltmək, innovasiyalara daxili və xarici investisiyaları dəstəkləmək kimi prioritetlər də daxildir.

### Regionlarda iqtisadi aktivliyin daha da artırılması

Strateji hədəflərdən biri regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün mövcud iş qüvvəsi və bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilməsidir. Regionların sürətli inkişafı insanların keyfiyyətli iqtisadi imkanlara və fiziki infrastruktura çıxışı ilə müşayiət olunmalıdır. Regionlar paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olmalıdır. Bu, regionların milli gəlirdə payının artırılmasını təmin edəcək.

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artır. Perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaq. Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir.

### Azad ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası

Strategiya sənədinin əsas milli resurs bazasının kökündə azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq və digər məqamlar da dayanır. Həmin çərçivə prinsiplərinin gerçəkləşməsi regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsini təmin etməklə Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək.

Mövcud imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcək.

### Hədəf adambaşına düşən ÜDM-i 10 min dollara çatdırmaqdır

Azərbaycanın qarşısında duran strateji hədəf çağırışı DB-nin müəyyən etdiyi ən yüksək indikatora - "yüksək gəlirli ölkə"lər qrupunda yer almaqdır. Hazırda Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul (ÜDM) yüksək gəlirli ölkələrlə müqayisədə təxminən 40 faiz azdır. Hazırda ölkəmizdə bu göstərici 6-7 min dollar təşkil edir, "yüksək gəlirli" ölkələrdə isə bu rəqəm 10 min dollardır. Ona görə də fərqi azaltmaq üçün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində, o cümlədən həm mallar, həm də xidmətlər daxil olmaqla ticarət sektoruna stimullaşdırıcı tədbirlər görüləcək. Həmin mərhələyə yüksəlmək üçün investisiya və infuziyadan, yəni xaricdən texnologiyaların qəbul edilməsi və onların iqtisadiyyata yönəldilməsi əsas tələblərdən biri hesab edilir. Bu ssenarilər "yuxarı-orta gəlir"li ölkə səviyyəsini təmin etdikdən sonra yenidən sürətli inkişaf transformasiyası nəticəsində sonuncu - "yüksək gəlirli" şkalaya keçidi təmin edə bilər. Bu statusa nail olmaq üçün isə investisiya, infuziya və innovasiya üçbucağını təmin etmək və dayanıqlı texnologiya liderləri ilə rəqabətdə dayanmaq lazımdır.

Ümumilikdə, həmin hədəf baxışları portfelində ən prinsipial qərarlardan biri də şaxələnmiş iqtisadiyyatın dayanıqlılığının gücləndirilməsidir. Əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır.

***E.CƏFƏRLİ***

# Ukraynaya ilk dəfə...

Ukraynanın "Naftogaz" Şirkətlər Qrupu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) qrupuna daxil olan "SOCAR Energy Ukraine" şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında ilk müqavilə imzalayıb. Sazişə əsasən, ilk dəfə Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçiriləcək. Qaz nəqlini mühüm hadisə kimi dəyərləndirən "Naftogaz"ın baş direktoru Sergey Koretski bildirib ki, qaz tədarükü həcm baxımından kiçik olsa da, strateji cəhətdən mühüm addımdır və uzunmüddətli əməkdaşlığa yol açır. Saziş, həmçinin tədarük mənbələrinin şaxələndirilməsi və Ukraynanın enerji təhlükəsizliyinin gücləndirilməsinin daha bir nümunəsidir.

## Azərbaycan qazı Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi ilə nəql olunacaq

### Azərbaycan Ukraynanın qaz infrastrukturunu iflasdan xilas edir

Qeyd edək ki, 2025-ci il yanvarın 1-dən Rusiya ilə Ukrayna arasındakı qaz tranzitinə dair dövlətlərarası sazişin hüquqi qüvvəsi başa çatıb və rəsmi Kiyev 5 il əvvəl "Qazprom" ilə "Naftogaz" arasında imzalanmış sazişin müddətini uzatmayıb. Nəticədə Rusiya qazının Ukrayna üzərindən Avropaya nəqli dayanıb, eyni zamanda, Ukraynaya rus qazının tədarükü tamamilə qapadılıb. Bu qərar Ukraynanın mövcud qaz şəbəkələri infrastrukturuna və qaz anbarlarına mənfi təsirlər göstərməyə başlayıb. Çünki qaz ekosistemi uzun müddət yanacaq olmadığı halda infrastrukturun sıradan çıxması təhlükəsi meydana çıxır. Ötən müddətdə Ukrayna həmin sistemin işləkliyin qoruyub saxlamaq üçün müəyyən resurslar axtarıb tapsa da, dayanıqlı yanacaq əldə edə bilməyib. Ona görə də, əsas mənbələrdən biri kimi Azərbaycanla əməkdaşlığa xüsusi önəm verilirdi. Naftogaz" şirkətinin rəhbərliyi xeyli müddətdir ki, "SOCAR"-la Azərbaycan qazının alışı üçün təkliflər irəli sürürdü. Çünki rus qazının tranziti dayandığından Ukraynanın qazpaylayıcı sistemi işləksiz qaldığı halda tamamilə iflic ola bilərdi.

Beləliklə, Azərbaycan Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçirməklə Ukraynanın enerji infrastrukturunu sıradan çıxmaqdan xilas etdi. Bu, həqiqətən də böyük hadisədir və məsələ hansısa həcmdə yanacağın ötürülməsi yox, bir dövlətin enerji sisteminin çöküşünün qarşısının alınmasıdır. Azərbaycan bu nümunəvi addımı ilə bir haha sübut edir ki, regionda əsil enerji əməkdaşlığı və dostluğu halqası yaradan qüdrətli dövlətdir.

### Avropa İttifaqı alqışlayır




Azərbaycanın Ukraynaya qaz nəqlinə başlamasını Avropa rəsmiləri də yüksək dəyərləndirir. Aİ-nin enerji komissarı Kadri Simson regionun enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın xidmətlərini yüksək qiymətləndirərək Kiyev və Moskva arasında tranzit müqaviləsinin bağlanmasını geosiyasi hadisə adlandırıb və sonrakı müddətdə Kiyevin Bakıya daha çox ehtiyaclarının artacağını istisna etməyib. Hətta Azərbaycandan Avropaya TAP-dan sonra bu tipli ikinci enerji marşrutunun açılması üçün yeni infrastrukturlar yaradılması da təklif olunur. Azərbaycan Ukrayna ilə həmsərhəd olmadığından Azərbaycan qazının Ukrayna ərazisi ilə Avropaya nəqlində Rusiya ilə paralel infrastrukturların əlaqələndirilməsi vacib sayılır. Həmçinin qazpaylayıcı və ötürücü sistemlərin, konnektorların birləşdirilməsi, əlavə qazötürücü blokların yaradılması və bütün bu infrastrukturların qurulması üçün böyük həcmdə investisiyalar lazımdır.

### İkinci TAP yarana bilərmi?

Təbii ki, yeni qaz xəttində maraqlı olan tərəf kimi bu sərmayələri Aİ təmin etməlidir. Bundan başqa, əlavə qaz resursları lazımdır. Azərbaycan 2020-ci ilin sonlarından nəqlinə başladığı TAP-la hazırda Aİ-nin 10 ölkəsinə illik həcmi 12-13 milyard kubmetr olan yanacaq ixrac edir, 2027-ci ildə ixracın həcminin 20 milyard kubmetri ötəcəyi gözlənilir. Ukrayna ərazisindən Avropaya uzanan Rusiya qaz xəttinin ötürücülük gücü 50 milyard kubmetrdən çoxdur. Azərbaycan həmin kəmərə öz ehtiyatlarının müəyyən bir qismini yönəldə bilər. Bunun üçün qazın Rusiya ərazisi vasitəsilə Rusiya-Ukrayna sərhədindəki məntəqəyə daşınması, yaxud Azərbaycan və Rusiya arasında "swap" (dəyiş-düyüş yolu ilə mübadilə) əməliyyatı mümkündür. Azərbaycan və Rusiya arasında Hacıqabul-Mozdok qaz kəməri hazırda işləkdir və mövcud infrastrukturu Bakı-Novo-Filin və əks rejimdə birləşdirmək, oradan isə Ukrayna ərazisinə, daha sonra Avropaya nəql etmək mümkün ola bilər. Bu kəmərin daşınma gücü illik 5-10 milyard kubmetrdir. Digər variant kimi "Balkan axını"- "Türk axını"nı şaxələndirməklə Rusiya qazının mübadiləsidir. Belə ki, Azərbaycan Türkiyə ildə nəql etdiyi 10 milyard kubmetr qazı Rusiya-Ukrayna marşrutuna yönəldə bilər, Türkiyəyə çatan həmin 10 milyard kubmetri isə Rusiya kompensasiya edə bilər. Bütün bu "svop əməliyyatları" üçün Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və Aİ arasında müqavilələrin imzalanması lazımdır.

***E.CƏFƏRLİ***

# YAP Mərkəzi Aparatında görüş keçirilib





İyulun 28-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin nümayəndələri ilə görüş keçirilib.

Görüş zamanı səmimi dostluq və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Gürcüstan münasibətlərinin uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin dövlətlər arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinə xüsusi önəm verdikləri qeyd olunub.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov müxtəlif ölkələrin siyasi partiyalarının gənclər təşkilatları ilə fəal əməkdaşlığın qurulduğunu vurğulayıb. O, partiyanın Gənclər Birliyinin beynəlxalq əlaqələrinin genişləndirilməsinin daim diqqət mərkəzində olduğunu söyləyib.

YAP Gənclər Birliyinin sədri Bakıda keçirilən Azərbaycan-Gürcüstan Gənclər Forumunun iki ölkənin gəncləri arasında əlaqələrin inkişafına təkan verəcəyinə inamını ifadə edib.

Gürcüstan parlamentinin Təhsil, elm və gənclər komitəsi sədrinin birinci müavini Giorgi Çakvetadze iki dost və tərəfdaş ölkənin gəncləri arasında səmərəli əməkdaşlıq imkanlarının önəmini vurğulayıb. Azərbaycan-Gürcüstan Gənclər Forumunun önəmindən bəhs edən G.Çakvetadze Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi ilə çoxşaxəli əməkdaşlığın qurulması istiqamətində birgə fəaliyyətə hazır olduqlarını bildirib.

Görüşdə hakim partiyaların gənclər təşkilatları arasında gələcək işbirliyinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Cenevrədə Qadın Parlament Sədrlərinin 15-ci Sammiti keçirilib





İyulun 28-də İsveçrə Konfederasiyasının Cenevrə şəhərində Qadın Parlament Sədrlərinin 15-ci Sammiti keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, sammitdə 29 ölkənin qadın spikerləri, bir sıra beynəlxalq təşkilatların qadın rəhbərləri daxil olmaqla, ümumilikdə, 350-yə yaxın nümayəndə iştirak edib.

Tədbirdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova sammitin əhəmiyyətindən danışaraq, hazırda dünyanın bir sıra münaqişələr, müharibələr və humanitar böhranlar ilə üz-üzə qaldığı şəraitdə qadınların xüsusilə həssas vəziyyətdə olduqlarını söyləyib. Onun sözlərinə görə, bir çox yerlərdə qadınlar zorakılıqdan, köçkünlükdən, sosial təminat vasitələrini, təhsil, səhiyyə və müdafiə imkanlarını itirməkdən əziyyət çəkirlər. Münaqişələr illər keçdikcə mövcud gender bərabərsizliyini daha da dərinləşdirir, qadın hüquqları sahəsində əldə olunan nailiyyətlərin üstündən xətt çəkir.

Azərbaycanda qadınların bu acı həqiqəti yaxşı bildiklərini qeyd edən Milli Məclisin sədri xatırladıb ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ərazilərimizin 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı təkcə bu ərazilərin məhv edilməsi ilə deyil, həm də etnik təmizləmə, əhalinin məcburi köçü və humanitar böhranla nəticələnib. Təxminən 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu əhalinin 52 faizini təşkil edən qızlar və qadınlar evlərini, ailələrini və təhlükəsizliklərini itiriblər.

Azərbaycanın 1918-ci ildə əksər Avropa ölkələrindən öncə qabaqlayaraq, qadınlara səsvermə hüququ verən ölkə olduğunu deyən S.Qafarova ölkəmizin qadınların hüquqlarının və onların ictimai həyatın bütün sahələrində fəal iştirakının təmin edilməsinə sadiq olduğunu söyləyib. Diqqətə çatdırılıb ki, Azərbaycan 2020-ci ildə ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması ilə bağlı tədbirləri uğurla həyata keçirir. Bu gün bu ərazilərdə 50 mindən çox insan yaşayır, işləyir və təhsil alır. Qadınlar isə sosial-iqtisadi infrastrukturun yaradılmasında, təhsil və tibb müəssisələrinin fəaliyyətində, davamlı inkişaf, işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası təşəbbüslərinin həyata keçirilməsində fəal rol oynayırlar.

Bundan başqa, baxılmaqda olan "Gender bərabərliyinin təmin edilməsi üzrə Milli Fəaliyyət Planı"nın layihəsində işğaldan azad edilmiş ərazilərə qayıdan qadınların məşğulluğunun təmin edilməsi, onların rəqəmsal bacarıqlarının artırılması, ehtiyaclarının müəyyən olunması üçün tədqiqatların aparılması və digər məsələlərin öz əksini tapdığını söyləyən S.Qafarova vurğulayıb ki, Ermənistan tərəfindən basdırılan 1,5 milyon mina hələ də görülən işlərə əsas maneə olaraq qalır. Ərazilərin minalardan təmizlənməsində, böyük insan və maliyyə resurslarının cəlb olunması lazım olan tədbirlərdə də Azərbaycan qadınları iştirak edirlər.

Spiker diqqətə çatdırıb ki, bütün çətinliklərə baxmayaraq, qadınların iştirakı olmadan dayanıqlı dünya qurmaq mümkün deyil. Qadınların proseslərə fəal cəlb olunması zorakılıq risklərini azaltmağa kömək etməklə yanaşı, uzunmüddətli inkişaf üçün möhkəm zəmin yaradır.

***N.BAYRAMLI***

# "Ən böyük müqavilə" imzalandı

## Şotlandiyada Aİ-nin ABŞ-a ixracının əksəriyyəti üçün 15 faiz vahid tarif dərəcəsi barədə razılığa gəlinib

Avropa İttifaqı (Aİ) ilə Amerika Birləşmiş Ştatları (ABŞ) arasında uzun müddət idi ki, ticarət razılaşması ətrafında müzakirələr aparılırdı. Artıq gömrük mübahisələrinə son qoyulduğu fikrini ifadə etmək mümkündür. Belə ki, tərəflər bugünlərdə ticarət sazişini imzalayıblar. Bu, ABŞ prezidenti Donald Trampla Avropa Komissiyasının (AK) sədri Ursula Fon der Leyen arasında Şotlandiyada keçirilən görüşdə baş tutub.

### Tərəflər nəyi razılaşdıra bilmirdilər və nələri razılaşdırdılar?

Gömrük tariflərinin razılaşdırılması xüsusilə də Avropa İttifaqı üçün müstəsna önəm daşıyırdı. Aİ-nin danışıqlardakı əsas məqsədi ABŞ rəhbərliyinin əvvəlcə təklif etdiyi 30 faizlik tarifdən xeyli aşağı səviyyəli nəticə əldə etmək idi. Ursula Fon der Lyayen görüş ərəfəsində mümkün razılaşmanı "bizim hər birimizin indiyədək imzaladığı ən böyük müqavilə" adlandırmışdı.

Qeyd edək ki, Aİ bu razılaşmaya nail olmasaydı, ticarət mübahisəsinin daha da alovlanması riski yaranacaqdı. Belə ki, Prezident Donald Tramp qarşı tərəfin güzəştə getməyəcəyi təqdirdə avqustun 1-dən etibarən əlavə gömrük tarifləri tətbiq edəcəyini bildirmişdi. O, bu siyasəti ticarət balansındakı qeyri-bərabərliyi aradan qaldırmaq və istehsalı ABŞ-a geri qaytarmaq niyyəti ilə izah edirdi.

Avropa Komissiyası isə tətbiq edilən gömrük rüsumlarını haqsız sayır və onların Ümumdünya Ticarət Təşkilatının (WTO) qaydalarına uyğun olmadığını bildirirdi. Aİ razılığın əldə olunmayacağı təqdirdə, ABŞ-a qarşı tətbiq olunacaq 93 milyard avroluq əks rüsumlardan ibarət tədbirlər paketini 27 üzv ölkə arasında razılaşdırmışdı. Həmin tədbirlər paketinin avqustun 7-dən tətbiq olunması gözlənilirdi.

Avropa İttifaqı razılaşmanın əldə olunmasına, necə deyərlər, tələsirdi. Bir çox üzv dövlətlər ticarət qarşıdurmasının daha da dərinləşməsini yüksələn gömrük tariflərindən daha ciddi təhlükə kimi qiymətləndirirdilər. Almaniya Kansleri Fridrix Merts son aylarda sürətli razılaşmanın vacibliyini dəfələrlə vurğulayaraq, uzun və çətin danışıqlardansa, tez və sadə həll yolunun daha məqsədəuyğun olduğunu açıqlamışdı.

Şotlandiyada imzalanan sənədə əsasən bir sıra prinsipial razılaşmalar əldə olunub. "Razılaşma qeyri-müəyyən zamanlarda müəyyənlik yaradır. O, Atlantikanın hər iki tərəfindəki vətəndaşlar və bizneslər üçün sabitlik və proqnozlaşdırılan durumu təmin edir". Bunu Avropa Komissiyasının sədri Ursula Fon der Leyen mətbuata verdiyi bəyanatında bildirib. Fikirlərinə davam edən Avropa Komissiyasının sədri vurğulayıb: "Bu, dünyanın iki ən böyük iqtisadiyyatı arasında bir sövdələşmədir. Biz ildə 1,7 trilyon dollar həcmində ticarət edirik. Birlikdə biz 800 milyon insanı və dünya ÜDM-nin təxminən 44 faizini əhatə edən bir bazarı təmsil edirik".

O, sövdələşmənin bəzi detallarını açıqlayıb. Belə ki, tərəflər Aİ-nin ABŞ-a ixracının əksəriyyəti üçün 15 faiz vahid tarif dərəcəsi barədə razılığa gəliblər. Bu dərəcə avtomobillər, yarımkeçiricilər və əczaçılıq məhsulları da daxil olmaqla, demək olar ki, bütün sektorlara tətbiq olunur. Və heç bir əlavə ödənişlər olmadan aydın bir tavanı təmsil edir.

"Biz, həmçinin bir sıra strateji məhsullar üçün sıfır tariflər barədə razılığa gəldik. Bura bütün təyyarələr və komponentlər, müəyyən kimyəvi maddələr, bəzi dərmanlar, yarımkeçirici avadanlıqlar, bəzi kənd təsərrüfatı məhsulları, təbii ehtiyatlar və kritik xammal daxildir", - deyə Ursula Fon der Leyen bildirib və qeyd edib ki, siyahı genişlənəcək. "Polad və alüminium üzrə Aİ və ABŞ qlobal həddən artıq istehsal kimi ümumi xarici problemlə üzləşirlər. Buna görə də tərəflər ədalətli qlobal rəqabəti təmin etmək üçün birlikdə çalışacaqlar", - deyə avropalı diplomat qeyd edib.

Həmçinin AB Rusiya qazı və neftini Amerika mayeləşdirilmiş təbii qazı, nefti və nüvə yanacağının əhəmiyyətli alışları ilə əvəz edəcək.

### "Aİ pis şərtlər əldə edib"

Tarixi ticarət sazişi imzalansa da, ona qarşı etirazlar da az deyil. Fransız sağçı "Milli Birlik" partiyasının parlament fraksiyasının lideri Marin Le Pen Avropa İttifaqı ilə ABŞ arasında yeni ticarət sazişini kəskin tənqid edib. O, bu barədə "X" sosial şəbəkəsindəki hesabında yazıb.

Onun sözlərinə görə, Ursula Fon der Leyenin Donald Trampla bağladığı ticarət sazişi Aİ üçün "siyasi, iqtisadi və mənəvi fiasco"dur.

"Siyasi nöqteyi-nəzərdən bu, bir uğursuzluqdur, çünki 27 üzvü olan Avropa İttifaqı Böyük Britaniyadan daha pis şərtlər əldə edib", - deyə Le Pen yazıb.

Onun iddiasına görə, saziş Aİ-ni ABŞ-dan hər il yüz milyardlarla avro dəyərində sıxılmış qaz və silah idxal etməyə məcbur edir ki, o bunu iqtisadi uğursuzluq və Fransanın sənayesi, eləcə də ölkənin enerji və hərbi sektoru üçün "təslim olmaq" adlandırıb.

Le Pen, həmçinin alman avtomobil sənayesi üçün rüsumların azaldılması naminə Fransız fermerlərin maraqlarının qurban verilməsindən narazılığını ifadə edib.

"Avropa İttifaqı (Aİ) ABŞ ilə sövdələşmədən sonra əsas maraqlarını qorumağı və lazımsız eskalasiyadan qaçmağı bacardı, lakin Berlin daha çox güzəştlərin əldə olunacağını gözləyirdi". Almaniya kansleri Fridrix Merts isə ABŞ və Aİ arasında əldə olunan razılaşmanı şərh edərkən belə bəyanatla çıxış edib.

"Mən, şübhəsiz ki, transatlantik ticarətdə daha çox güzəştlər gözləyirdim", - o bildirib.

Kansler vurğulayıb ki, "proqnozlaşdırıla bilən ticarət əlaqələrindən Atlantikanın hər iki tərəfində həm şirkətlər, həm də istehlakçılar qazanır".

### Qlobal iqtisadiyyatın itkiləri

2027-ci ilə qədər ABŞ prezidenti Donald Trampın tətbiq etdiyi rüsumlar səbəbindən dünya iqtisadiyyatı böhranaqədərki ssenariyə nisbətən 2 trilyon



dollar itirə bilər, lakin uzunmüddətli perspektivdə zərərin bir hissəsi istehsal zəncirlərinin yenidən qurulması ilə kompensasiya olunacaq.

Bu qiymətləndirməni "Bloomberg Economics" aparıb. "Nəticədə rüsumlar hər kəsin qorxduğu qədər yüksək olmaya bilər. Lakin mahiyyətcə bu, qlobal ticarət mexanizmlərini çirkləndirən bir vergidir", - deyə "Oxford Economics"in aparıcı iqtisadçısı Daniel Harenberg bildirib. O, həmçinin qeyd edib ki, belə siyasət investisiyalara zərər verir.

"Bloomberg" yazır ki, ABŞ-da rüsumların səviyyəsi hazırda 1930-cu illərdən etibarən ən yüksək həddədir və Trampın prezidentlik müddətinin əvvəlində olan göstəricidən, demək olar ki, 6 dəfə çoxdur. Agentliyin iqtisadçıları ABŞ-ın orta rüsumunu keçən ildəki 2,5 faizə qarşı 13,5faiz olaraq qiymətləndirirlər. Aİ ilə rüsumlar haqqında saziş bağlandıqdan sonra göstərici 16 faizə qədər artacaq.

***Mübariz ABDULLAYEV***

# Türkiyənin qüruru...

Beynəlxalq nizamın pozulduğu indiki dövrdə hər bir ölkə milli təhlükəsizliyini təmin etmək üçün silahlı qüvvələrini gücləndirir. Son 20 ildən artıq müddətdə Türkiyə öz hərbi gücünü əhəmiyyətli dərəcədə artırıb. Bu dövrdə Türkiyə öz müdafiə sənayesini çox sürətlə gücləndirib və ordusunu ən müasir hərbi texnika və atıcı silahlarla təmin edib. Son illər öz arsenalını tanınmaz dərəcədə dəyişən qardaş ölkənin ordusu dünyanın ən güclü ordularından biri kimi tanınır. Təsadüfi deyil ki, Türkiyə PUA istehsalına görə dünyada liderlər sırasındadır. Eyni zamanda, qardaş ölkə PUA ixracı baxımından dünyanın öndə gedən dövlətləri arasındadır.

## İndoneziya 48 ədəd "KAAN" alacaq




Bu istiqamətdə Ankara daha bir uğura imza atıb. Belə ki, Türkiyə istehsalı olan beşinci nəsil "KAAN" qırıcı təyyarələrinin ilk nümunələri sifarişçilərə 2028-ci ilin sonu - 2029-cu ilin əvvəlində təhvil veriləcək. Bu barədə jurnalistlərə TUSAŞ aerokosmik şirkətinin baş direktoru Mehmet Demiroğlu məlumat verib. Onun sözlərinə görə, hazırda bir neçə hərbi təyyarə prototipinin sınaqları davam edir və ilk üç "KAAN" təyyarəsi Türkiyə Hərbi Hava Qüvvələrinin komandanlığına təqdim olunacaq. TUSAŞ-ın baş direktoru "KAAN" təyyarəsini "Türkiyənin qüruru" adlandırıb.

Qeyd edək ki, bu ilin iyun ayında İndoneziyaya 48 ədəd "KAAN" təyyarəsinin tədarükü üzrə müqavilə imzalanıb. Razılaşma 2025-ci ildə Cakartada keçirilən "INDO Defence" müdafiə sərgisi çərçivəsində əldə olunub. Bugünlərdə İstanbulda keçirilən "IDEF 2025" sərgisi çərçivəsində isə Türkiyə ilə İndoneziya arasında 48 ədəd "KAAN" döyüş təyyarəsinin satışı ilə bağlı müqavilə imzalanıb. Müqaviləni Türkiyə Prezidenti Administrasiyasının Müdafiə Sənayesi Baş İdarəsinin rəhbəri Haluk Görgün, Aviasiya və Kosmos Sənayesi (TUSAŞ) İdarə Heyətinin sədri Ömər Cihad Vardan və İndoneziyanın müdafiə naziri Sjafrie Sjamsoeddin imzalayıblar. Mərasimdə çıxış edən Haluk Görgün bu razılaşmanın Türkiyənin Cümhuriyyət tarixində müdafiə sənayesi sahəsində bağlanmış ən böyük ixracat müqaviləsi olduğunu bildirib. Ölkəsinin müdafiə sənayesində yerli istehsal payının 83 faizə yüksəldiyini vurğulayan Görgün həyata keçirdikləri layihələr, hazırlanan sursatlar və digər sistemlərlə bağlı bir çox rekorda imza atdıqlarını, bir çox ölkə ilə müqavilələr bağladıqlarını bildirib.

## "KAAN" - Türkiyənin növbəti uğuru

Məlumdur ki, Türkiyə ən yeni nəsil texniki göstəricilərə malik qırıcılar, helikopterlər və avtomobillər də istehsal edir. Türkiyə milli döyüş təyyarəsi "KAAN"ı istehsal etməklə dünyada 5-ci nəsil qırıcı istehsal edən 5 ölkədən biri sayılır. Bu təyyarə ABŞ-ın "F-35" döyüş qırıcılarına bərabər hesab olunur. "KAAN"ın texniki xüsusiyyətlərinə gəldikdə isə, Türk Təyyarə Sənayesi Şirkətinin (TUSAŞ) yerli və milli imkanlarla inkişaf etdirdiyi milli döyüş təyyarəsi Pilotsuz Uçuş Aparatlarının hava xəbərdarlıqları, nəzarəti kimi funksiyalarını özündə cəmləşdirir. Yeni nəsil silahlarının vasitəsilə havadan havaya döyüş aparmaq qabiliyyətinə malik təyyarə daxili silah yuvalarından səsdən yüksək sürətlə dəqiq zərbələr endirmək iqtidarındadır. Onun döyüş gücü süni intellekt və neyron şəbəkə dəstəyi ilə artırılıb.

Xatırladaq ki, Türkiyənin "KAAN" milli hərbi təyyarəsi ötən ilin fevralında ilk uçuşunu uğurla həyata keçirib. Türkiyənin Aerokosmik Sənayesi tərəfindən həyata keçirilən ən mühüm texnologiya layihələrindən biri olan "KAAN"ın uçuşu üçün bütün texniki və laboratoriya sınaqları tamamlanıb. "KAAN"ın qanadlarının uzunluğu 14, hündürlüyü 6, uzunluğu isə 21 metrdir. Təyyarənin kokpiti bir pilot üçün nəzərdə tutulub. Qoşa mühərriki, yüksək manevr qabiliyyəti, radardan yayınması, gəmidə silah daşıma və elektron döyüş qabiliyyətləri bu hərbi hava vasitəsinin ən diqqətçəkən xüsusiyyətləridir. Hər cür hava və yer hədəflərinə strateji hücum imkanı yaradacaq təyyarə yüksək döyüş məsafəsi və supersonik sürətlə dəqiq atəş xüsusiyyətləri ilə də fərqlənir.

Qeyd edək ki, qardaş ölkə yeni hava hücumundan müdafiə sistemi də yaratmaqdadır. "Polad günbəz" ("Çelik Kubbe") adlandırılan yeni sistem ölkənin hava hücumundan müdafiə sistemlərinin vahid şəbəkəyə inteqrasiyasını və real vaxt rejimində qərarların qəbulu üçün onun vasitəsilə məlumatların ötürülməsini nəzərdə tutur. Artıq uzunmənzilli hava hücumundan müdafiə sistemi olan "Siper Blok-1" Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib. "Siper Blok-1" ölkənin "Polad Günbəz" sisteminin yeni elementinə çevrilib. Türkiyə mediası yazır ki, sözügedən sistem ABŞ istehsalı olan "Patriot" və Rusiya istehsalı olan "S-400"ə bənzərdir. "Siper"in batareyasına 4 ədəd raket buraxıcı sistemi, 2 ədəd raket yükləmə sistemi, 1 ədəd "Teirs" radarı, 1 ədəd atəşi idarəetmə mərkəzi, 1 ədəd atəşə nəzarət radarı və 3 ədəd rabitə stansiyası daxildir.

## İnsansız sualtı qayıqların hazırlanması hədəflər sırasındadır

Bundan başqa, Türkiyə sualtı qayıq layihəsini də uğurla reallaşdırır. Hələ 2015-ci ildə Yeni Tip Sualtı Qayıq Layihəsi çərçivəsində yerlilik göstəricisi yüksək olan "Type-214TN (Reis)" sinfinə məxsus sualtı qayıqların istehsalına başlayan Türkiyə 2017-ci ilin iyun ayında MİLDEN (Milli Sualtı Qayıq) layihəsinə start verib və dizaynı tamamilə Türkiyədə həyata keçiriləcək çox yüksək yerli resurs payına malik sualtı qayıqların istehsalını təhlil edib. 2019-cu ilin aprel ayında Hərbi Dəniz Qüvvələri Komandanlığı tərkibində MİLDEN Dizayn Layihə Ofisi yaradılıb və MİLDEN Layihəsi rəsmi olaraq başlayıb. 2022-ci ilin əvvəlində MİLDEN-in konseptual dizaynları tamamlanıb və qabaqcıl dizayn mərhələsinə start verilib. İlk vaxtlarda - 2022-ci ilin avqust ayına olan məlumata görə, Layihə Ofisində 23-ü mühəndis, 5-i texniki layihəçi olmaqla 28 işçi çalışıb. Layihə irəlilədikcə personal sayı da artır. İlk gəminin 2031-ci ilə qədər tamamlanacağı gözlənilir. Hələ ki, nə qədər sualtı qayığın istehsal olunacağı bəlli deyil. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışlarında deyib ki, hazırda hədəf insansız sualtı qayıqlar hazırlamaqdır.

Bütün bunlar Türkiyənin hərbi sənayesinin parlaq nailiyyətləridir. Bu faktor beynəlxalq miqyasda qardaş ölkənin önəmini daha da artırır.

*Nardar BAYRAMLI*

# Paşinyanın Altay səfəri...

## Ermənistanın baş naziri səfər zamanı Zəngəzur dəhlizini müzakirə edib?

Ermənistanda Paşinyan hökumətinin Rusiyadan üz döndərərək Qərbə meyl etməsi yeni məsələ deyil. Bütün dünya bilir ki, Paşinyanın hakimiyyətə gətirilməsi Sorosun layihəsi olub. İndiyədək rəsmi İrəvanın yürütdüyü siyasət Moskva tərəfindən xoş qarşılanmır. Çünki Rusiya Cənubi Qafqazda özünün forpostu olan Ermənistanı itirməkdən ciddi narahatdır. Digər tərəfdən, "rus NATO"su olan KTMT-nin gələcəyinin sual altına düşməsi narahatlığı da Moskvanı İrəvana qarşı müəyyən addımlar atmağa sövq edir. Çünki Ermənistanın KTMT-dən uzaqlaşması yaxın gələcəkdə presedent yarada bilər ki, bu da təşkilat üçün yaxşı heç nə vəd etmir.

**Qərb, yoxsa Rusiya?**

Nəzərə alaq ki, İrəvanın xarici siyasəti ziddiyyətlidir. Paşinyan hakimiyyəti Rusiyaya bağlı beynəlxalq tədbirlərdə iştirakdan gah imtina edir, gah da əksinə. Guya, erməni hökuməti bununla balanslı xarici siyasət həyata keçirdiyini nümayiş etdirməyə çalışır. Əslində isə, bu qeyri-müəyyən bir siyasətdir. Məlumdur ki, bu yaxınlarda mətbuat konfransı keçirən N.Paşinyan Rusiya ilə münasibətlərin heç vaxt əvvəlki kimi olmayacağını bəyan edərək demişdi: "Amma bu, o demək deyil ki, bizim münasibətlərimiz pis olmalıdır. Təbii ki, Rusiyanın bu və ya digər planlarına dair müəyyən siqnallar var. Açığını desəm, mən bu cür söz-söhbətlərə və qiymətləndirmələrə inanmağa meyilli deyiləm, amma hər hansı problem yaranarsa, biz onları rusiyalı tərəfdaşlarımızla müzakirə edəcəyik, həll yollarını tapmağa çalışacağıq".

Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına gəlincə, Paşinyan deyib ki, Ermənistanın KTMT-dən çıxmaq ehtimalı bu təşkilatda iştirakını bərpa etməsindən daha yüksəkdir. Belə bəyanatların ardınca, Paşinyanın Rusiyanın Altay vilayətinə səfər etməsi təəccüblü görünür. İndiyə qədər Rusiyada bundan da daha nüfuzlu tədbirlərdə iştirakdan imtina edən Nikolun niyə Altaya səfər etməsi suallar doğurur. Bu səfər ilk növbədə seçki ərəfəsində Qərblə yaxınlaşmanın yaratdığı riskləri balanslaşdırmağa xidmət edir. Belə ki, kilsə və Karapetyana qarşı addımlar artıq Moskvanın qəzəbinə səbəb olub. ABŞ və Avropa İttifaqı ilə əlaqələrin daha da dərinləşməsi Kremlin "səbr kasası"nı daşıra, daha sərt addımlar atmağa vadar edə bilər. Erməni baş nazir yaxşı anlayır ki, Rusiyadan iqtisadi və enerji baxımından tam asılı vəziyyətdədir. Eyni zamanda, xarici ticarəti də Avrasiya İqtisadi İttifaqından, dolayı yolla birbaşa Rusiyadan asılıdır. Təsadüfi deyil ki, Moskva ilə kilsə və Samvel Karapetyana, konkret olaraq, Kremlin təsir rıçaqlarına görə yaranan gərginlik xarici ticarətə ciddi zərbə vurur.



**Aİ-yə üzv olmaq istəyən İrəvan AİI-ni tərk etməlidir**

Səfər ərəfəsində erməni mediası yazırdı ki, N. Paşinyanın əsas məqsədi Rusiyanın baş naziri ilə Zəngəzur dəhlizini müzakirə etməkdir. Yəni, bu məqsəd üçün Paşinyan Altaya səfər edib. Məlumdur ki, Ermənistanın Avropaya inteqrasiya yolu AİI-dən çıxmaqdan keçir. İndiki halda, Avropa İttifaqının bazarı Ermənistan üçün bağlıdır. Standartlar, rəqabət bu bazara girişi mümkünsüz edir. Logistika sahəsində də Aİ ilə ortaq nöqtə yoxdur. Bu yöndə Avropaya yeganə qapı Zəngəzur dəhlizindən keçir. Rusiya Baş naziri Mixail Mişustinlə görüş keçirən, ticari-iqtisadi əməkdaşlığı, Ermənistanda Rusiya investisiyasını müzakirə edən Paşinyan, çox güman ki, Zəngəzur dəhlizini diqət mərkəzində saxlayıb. Erməni mediası yazır ki, Mişustin görüş zamanı iki ölkə arasında ticarət dövriyyəsinin azalmasından, Aİ-yə uyğunlaşdırılan normativ-hüquq sahəsində dəyişikliklərdən narazılıq edib. Çünki bu dəyişikliklər AİI standartları ilə ziddiyyət təşkil edir. Əslində, bu, Mişustinin sərt xəbərdarlığı kimi qəbul edilməlidir. Çünki dəfələrlə Rusiya rəsmiləri xəbərdarlıq ediblər ki, Avropa inteqrasiyası Ermənistanın AİI-dən çıxması deməkdir. Bu isə erməni iqtisadiyyatının məhvi mənasına gəlir.

**Paşinyan Azərbaycanla Türkiyənin şərtlərini yerinə yetirməlidir**

Digər tərəfdən, Paşinyan Moskvanın Zəngəzur dəhlizi və seçkilərlə bağlı nəbzini yoxlamaq niyyətindədir. Baş nazirin bu səfərdən əvvəl Eçmiədzinə hücuma hazırlaşdığı, katolikos seçimləri barədə açıqlamaları da təsadüfi deyil. Təbii ki, Rusiya Zəngəzur dəhlizinə nəzarəti əldən vermək istəmir. Paşinyan isə Rusiyadan uzaqlaşmağa çalışır. Lakin erməni baş nazir anlayır ki, bu, elə də asan məsələ deyil. Hakimiyyətdən devrilmək qorxusu onun Rusiya ilə nisbətən ehtiyatlı siyasət yürütməyə məcbur edir. Hələ də özünə tam güvənə bilməyən Ermənistan hökuməti, necə deyərlər odla su arasında qalıb. Çünki həm Moskva, həm də Brüssel İrəvandan öz məqsədləri naminə istifadə etməyə çalışır. Belə şərait isə Paşinyan hakimiyyəti üçün yaxşı heç nə vəd etmir. Paşinyan üçün ən doğru variant Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanla Türkiyənin mövqeyini nəzərə almaqdır. Çünki məhz bu halda Ermənistan təcriddən çıxa bilər.

*N.BAYRAMLI*

# Aİ Kiyevi 1,5 milyard avrodan məhrum edir...

Ukrayna Prezidenti Volodimir Zelenski Qərbin ciddi təzyiqləri üz-üzə qalıb. Belə ki, Avropa İttifaqı Zelenskinin antikorrupsiya xidmətlərinə qarşı təzyiqləri fonunda Ukrayna üçün ayırdığı yardımın bir hissəsini dayandırıb. "The New York Times" (NYT) qəzetinin məlumatına görə, Zelenskinin korrupsiya ilə mübarizəyə yanaşması Ukraynada hökumət əleyhinə etirazlarla qarşılanıb və bu, Avropa İttifaqının Kiyevə ayırdığı maliyyə yardımının səngiməsinə səbəb ola bilər. Qəzetin məlumatında bildirilir ki, Aİ Kiyevə nəzərdə tutulan 4,5 milyard avroluq yardımın 1,5 milyard avrosunun kəsilməsi barədə qərar qəbul edib - Vəsaitin ayrılması yaxşı idarəetmə standartlarına nail olmaqdan asılıdır və bu vəsait hərbi satınalmalar üçün istifadə oluna bilməz. Qəzet qeyd edib ki, Ukraynanın dövlət başçısı son addımlarından geri çəkilərsə, maliyyələşdirmə bərpa oluna bilər. Nəşr, həmçinin xatırladıb ki, Aİ bu yardım mexanizmini - Ukraynaya Yardım Fondunu keçən il yaradıb və müharibənin vurduğu ziyanı aradan qaldırmaq və ölkəni Aİ-yə üzv olmağa hazırlamaq üçün üç il ərzində 50 milyard avro ayırmağı vəd edib. Avropa Komissiyasının sözçüsü Guillaume Mercier bildirib ki, Ukrayna 16 meyardan üçünə əməl etməməsinə, o cümlədən ixtisaslaşdırılmış antikorrupsiya məhkəməsinə hakimlər təyin etməməsinə baxmayaraq, iyun ayında vəsait tələb edib. Ukrayna hakimiyyətinin antikorrupsiya agentliklərinə qarşı atdığı addımlara etiraz edən xarici liderlər arasında Böyük Britaniyanın baş naziri Kir Starmer də olub - o, Zelenskiyə zəng edərək məsələni müzakirə edib.

Qeyd edək ki, iyunun 22-də Ukrayna Parlamenti - Ali Rada Ukrayna Milli Antikorrupsiya Bürosunun (NABU) və Korrupsiyaya Qarşı Mübarizə üzrə İxtisaslaşdırılmış Prokurorluğunun (SAPO) bütün müstəqilliyini faktiki olaraq aradan qaldıran qanun layihəsini dəstəkləyib. Zelenski daha sonra qanun layihəsini imzalayıb. Bu qanun layihəsinə görə, hər iki strukturun səlahiyyətləri birbaşa Baş Prokurorluğa verilir

## Zelenski geri çəkildi

Zelenskinin antikorrupsiya ilə bağlı qanun layihəsinə imza atmasından sonra Ukraynanın bir çox şəhərlərində genişmiqyaslı etirazlar baş qaldırdı. Bir sıra qeyri-hökumət təşkilatları, o cümlədən müxalif siyasi partiyalar belə bir qanun layihəsini qəbuledilməz hesab edirlər. Daxili təzyiqlərlə yanaşı, Zelenski üzərində xarici təzyiqlər də artmaqdadır - Avropa İttifaqının yüksək səviyyəli rəsmiləri Zelenskini bu qərarından geri çəkilməyə çağırıblar. "Bloomberg" agentliyinin məsələ ilə bağlı məqaləsində qeyd olunur ki, Zelenski prezident kimi vəzifəsini icra etmək istəyirsə, bu qərarını ləğv etməlidir Çünki, korrupsiyaya qarşı bu cür mübarizə üsulları Zelenskinin qəhrəmanlıq imicini sarsıda bilər. Agentlik, həmçinin xatırladıb ki, Ukrayna prezidentinin reytinqi təxminən 25 faizə düşüb. Britaniyanın "Financial Times" qəzeti yazıb ki, Qərb dövlətləri Zelenskinin Ukraynanın antikorrupsiya agentliklərinə qarşı hərəkətlərinə görə ondan çox məyus olublar. Təbii ki, bütün bunların fonunda - daxili və xarici təzyiqlər nəticəsində Zelenski hakimiyyəti geri çəkilmək məcburiyyətində oldu. Artıq Ukrayna parlamentində NABU-ya və SAP-a müstəqilliyin qaytarılmasını nəzərdə tutan qanun layihəsini qeydə alıblar. Ali Radanın komitə rəhbəri Yaroslav Yurçişin yerli mətbuata açıqlamasında bildirib ki, müxtəlif fraksiyalardan olan 48 deputatın imzası ilə NABU və SAP-a müstəqilliyin qaytarılması haqqında qanun layihəsi yaxın günlərdə səsverməyə çıxarılacaq.

## Qanun layihəsinin pərdəarxası



The New York Times, "Bloomberg" və "Financial Times" - dən fərqli olaraq, bəzi Qərb KİV-lərində ciddi əks-səda doğuran qanun layihəsi ilə bağlı maraqlı fikirlər səsləndirilir. Həmin KİV-lər bəzi Qərb ekspertlərinin fikirlərinə istinadən bildiriblər ki, Zelenski ABŞ Prezidenti Donald Trampın çağırışından sonra belə bir addım atmağa məcbur olub - Ağ Evin rəhbəri rəsmi Kiyevə Bayden administrasiyası dövründə Ukraynaya verilən 350 milyard yardımın haraya xərclənməsi barədə hesabatın hazırlanmasını tələb edir. Sözsüz ki, ABŞ prezidenti hər bir tələbində ciddidir. Kiyevdən müəyyən müddət ərzində cavabın verilməsini gözləyir. Ekspertlərin sözlərinə görə, Zelenski də bu problemi həll etmək üçün müxtəlif yolları nəzərdən keçirib - sonda isə bu cür qanun layihəsini Ali Radanın müzakirəsinə çıxarıb. Onlar belə bir fikir yürüdüblər ki, Zelenski hakimiyyəti belə bir hesabatın hazırlanmasını Milli Antikorrupsiya Bürosuna və Korrupsiyaya Qarşı Mübarizə üzrə İxtisaslaşdırılmış Prokurorluğa etibar etməyib - bu hesabatın birbaşa Baş prokurorluq tərəfindən icra olunmasını istəyib. Ona görə ki, Tramp administrasiyası dəqiq rəqəmlər üzərində hesabatın hazırlanmasını tələb edir. Hazırda Zelenski çıxılmaz bir vəziyyətdədir. Həm Trampın tələbi üzrə Bayden administrasiyası dövründə Ukraynaya verilən maliyyə yardımının hansı istiqamətlərə xərclənməsi barədə hesabatın hazırlanmasını təmin etməli, həm də Avropa İttifaqının çağırışlarını əməl etməlidir - şübhəsiz ki, bu gün Aİ-nin maliyyə yardımları Ukrayna üçün həyati əhəmiyyət kəsb edir. Kiyev Aİ-nin iqtisadi və maliyyə yardımlarından məhrum olmaq istəmir.

*Yunis ABDULLAYEV*

# Yüz illik ədavət...

**Dünyada qaynar nöqtələrin biri də artıb. Söhbət Tailand ilə Kamboca arasında köhnə ədavətin yenidən qızışmasından və silahlı toqquşma müstəvisinə keçməsindən gedir. Artıq bir neçə gündür ki, oradan həyəcanlı xəbərlər gəlir. Qarşılıqlı hücumlar nəticəsində hər iki tərəfdən onlarla hərbçi və dinc sakin həyatını itirib. Nə baş verir? Kamboca və Tailand uzun sürən müharibəyə səhnə ola bilərmi?**

## Kamboca və Tailand atəşkəs haqqında razılığa gəlib

### Yelisey Sarayının səpdiyi zərərli toxumlar

Tailand və Kamboca aralarındakı sərhədlə bağlı yüz ildən çoxdur ki, bir-biri ilə ədavətdədirlər. Onlar arasında dəfələrlə bu zəmində qanlı toqquşmalar baş verib. Ədavətin kökü isə Fransanın müstəmləkəçilik tarixinə söykənir. Belə ki, Tailand və Kamboca arasında 817 kilometrlik sərhədin əksər hissəsi qeyd olunan ərazilərin Fransanın müstəmləkəsi altında olduğu dönəmdə çəkilib. Sərhəd xətlərinin Yelisey Sarayı tərəfindən müəyyənləşdirilməsi sonu görünməyən ədavətin əsasını qoyub. Xüsusilə də Preahvihear məbəd kompleksi və onun yerləşdiyi 4.6 kvadrat kilometr ərazi hər iki tərəfdən mübahisələndirilir. XI əsrdə inşa edilən bu məbəd Kamboca ilə Tailand sərhədinə yaxın yerdə yerləşir və hər iki ölkə bu əraziyə iddia edir. 1962-ci ildə Haaqada yerləşən Beynəlxalq Ədalət Məhkəməsi bu məbədin Kambocaya məxsus olduğu barədə qərar qəbul etsə də, Tailand bununla razılaşmır və əraziyə iddialarından geri çəkilmir. 2008-ci ildə Kambocanın Preahvihear məbədini UNESCO-nun irs siyahısına daxil etdirməyə çalışması iki ölkə arasında gərginliyi yenidən alovlandırmış və bu hadisə Tailandda kütləvi etirazlara səbəb olmuşdu. Lakin bu etirazlara baxmayaraq, Kambocanın istəyi təmin olunub. Preahvihear 2011-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Abidəyə sahiblənmək uğrunda sərhəddə mütəmadi qaydada toqquşmalar qeydə alınır və nəticədə hər iki tərəf itkilər verir.

Sonu görünməyən ədavət nəzərə alınmaqla hər iki ölkə silahlanma, hərbi xərclərini artırmaq və sərhəd xəttini gücləndirmək siyasəti həyata keçirir. Statistikaya nəzər saldıqda üstünlüyün Tailand tərəfində olduğu görünür. Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun (IISS) məlumatına əsasən, Tailand ordusunda 361,000 aktiv hərbçi var - bu, Kambocanın gücünü 3 dəfə üstələyir. Bundan başqa, Tailandda 11 müasir “Gripen” qırıcısı, onlarca F-16 və F-5 döyüş təyyarəsi, ABŞ istehsalı “Cobra” hücum və “Black Hawk” transport helikopterləri mövcuddur. Həmçinin Tailandın arsenalında 600-dən çox artilleriya qurğusu var - Kambocada bu göstərici 400-ə yaxındır, əksəriyyəti də köhnədir. Bununla yanaşı, Tailand ABŞ-ın müttəfiqi sayılır. Arsenalında əsasən Rusiya silahları olan Kambocanın hərbi büdcəsi isə Tailanddan 15 dəfə azdır. Əhali sayına görə də Tailand Kambocanı üstələyir. Belə ki, Kambocanın 17, Tailandın isə 71 milyon əhalisi var.



### Hər iki tərəfdən artan qarşılıqlı ittihamlar

Kamboca ilə Tailandın münasibətləri bir qayda olaraq “kövrək sülh” kimi dəyərləndirilir. Yəni nisbi sabitliyin genişmiqyaslı münaqişəyə çevrilməsi üçün kiçik bir səbəb də kifayətdir ki, bu da qarşılıqlı etimad mühitinin olmamasından qaynaqlanır. Hazırkı toqquşmaların səbəbi isə iyulun 16-da Tailand əsgərinin mina partlayışında ayağını itirməsi ilə başlanıb. İyulun 24-də iki ölkə arasındakı mübahisəli sərhəd ərazidə insident daha da kəskinləşib. Tailand tərəfi iddia edir ki, kambocalı əsgərlərin ərazidə yaxın vaxtlarda basdırdığı minanın partlaması nəticəsində 5 hərbçi yaralanıb. Tailand Kambocanın bu addımının Piyadalar Əleyhinə Minaların Qadağan Olunması Konvensiyasına (Ottava Konvensiyası) zidd olduğunu bəyan edib.

Kamboca isə bu iddiaları rədd edərək, mina insidentinin tailandlı əsgərlərin qarşılıqlı razılaşdırılmış patrul marşrutlarından uzaqlaşması nəticəsində baş verdiyini bildirib. “Kamboca dəfələrlə Tailand tərəfinə bu ərazilərdə hələ də zərərsizləşdirilməmiş bir çox mina və müharibə qalıqlarının olduğunu xatırladıb və 2000-ci il Anlaşma Memorandumunda göstərildiyi kimi qarşılıqlı razılaşdırılmış patrul marşrutlarına zidd hərəkətlərdən çəkinməyə çağırıb”, - deyə Kamboca Müdafiə Nazirliyinin rəsmisi general-leytenant Mali Soçeata bildirib.

Medianın məlumatına görə mina insidentindən sonra mübahisəli ərazidə iki ölkənin hərbçiləri arasında atışma olub. Tailand tərəfdə yaşayış məntəqəsinə mərmilərin düşməsi nəticəsində 12 mülki şəxsin ölməsi, habelə Tailand hərbi təyyarələrinin Kamboca ordusunun 2 postunu dağıtması barədə xəbərlər yayılıb.

Bölgədə vəziyyət anındaca gərginləşib. Kambocanın Baş naziri Hun Manet BMT Təhlükəsizlik Şurasına müraciət edərək, Tailandın “aqressiyasını dayandırmaq üçün” təcili iclas çağırılmasını tələb edib.

Baş nazir Hun Manet BMT Təhlükəsizlik Şurasının prezidenti Asim İftixar Əhmədə ünvanladığı məktubda bildirib ki, Tailand silahlı qüvvələri Kamboca mövqelərinə “əsassız, əvvəlcədən planlaşdırılmış və məqsədli hücumlar” həyata keçirib. O, Tailandı beynəlxalq hüququ kobud şəkildə pozmaqda ittiham edib və kambocalı əsgərlərin yalnız özünümüdafiə məqsədilə cavab verdiyini bəyan edib.

Tailand Xarici İşlər Nazirliyi isə Kambocanı Tailand ərazisində mina yerləşdirməkdə və mübahisəli sərhəd boyunca mülki əhalini hədəf alan raket hücumları həyata keçirməkdə günahlandırıb. Nazirliyin bəyanatında deyilir: “Kral Tailand hökuməti Kambocanı məsuliyyətə cəlb etməyə, mülki və hərbi hədəflərə hücumları dərhal dayandırmağa çağırır.”

Tailand Səhiyyə Nazirliyinin yaydığı məlumata əsasən, Kambocanın hücumları nəticəsində azı 11 mülki vətəndaş həlak olub, onlarla insan yaralanıb. Raketlərdən biri Sisaket vilayətində yerləşən yanacaqdoldurma məntəqəsinə düşüb. 6 nəfər ölüb, 10 nəfər yaralanıb. Sosial şəbəkələrdə yayılan kadrlarda mağazanın dağıldığı, pəncərələrin sındığı, tüstü içində kömək gözləyən insanların görüntüləri yer alıb.

Eyni zamanda, Kambocanın Tailandla sərhəddə yerləşən Oddar Meançey əyalətində sərhəd münaqişəsinin kəskinləşməsi səbəbilə 30 minə yaxın insan öz evlərini tərk edib. Yerli hakimiyyət orqanlarının açıqlamasına görə, məcburi köçkünlərin sayı artıq 8 000 ailəni ötüb. Rəqəmlər hər ötən gün dəyişir və daha çox insan həyatını, ev-eşiyini itirir. BMT Baş katibinin mətbuat xidmətinin təmsilçisi Stefani Trembley daha əvvəl bildirmişdi ki, münaqişə nəticəsində Tailandda 131 mindən çox, Kambocada isə 4 mindən çox insan evlərini tərk edib.

Silahların işə salınması, qarşılıqlı artileriya hücumları diplomatik müstəvidə də gərginliyi artırıb. Tailand iki ölkə arasında sərhəd gərginliyindən sonra Kamboca ilə diplomatik əlaqələri məhdudlaşdırmaq qərarına gəlib.Tailandın Baş nazirinin ofisi ölkənin xarici işlər naziri Phumtham Veçayaçaya Kambocadakı səfiri geri çağırmaq, bu ölkənin Tailanddakı səfirini isə ölkədən çıxarmaq barədə tapşırıq verib. Bundan başqa, Tailand Kamboca ilə bütün sərhəd-keçid məntəqələrini bağlayıb.

Kambocanın buna cavabı da adekvat olub. Xarici İşlər Nazirliyi ölkənin Tailanddakı bütün diplomatik heyətini geri çağırıb.

### Trampın sülh çağırışı, hər iki tərəf danışıqlara hazır olduğunu bildirsə də, silahlar susmur

ABŞ-ın yeni administrasiyası Tailand ilə Kamboca arasında atəşkəsə nail olmağı Vaşinqtonun dünya nizamının müəyyənləşdirilməsində qlobal liderliyini təsdiqləmək üçün daha bir fürsət kimi dəyərləndirir. Əslində, Ağ Evin münaqişəni səngitmək üçün kifayət qədər geniş imlkanları var. Təkcə belə bir faktı xatırlatmaq yerinə düşər ki, ABŞ ilə Tailand kifayət qədər sıx əməkdaşlıq münasibətlərinə malikdirlər. Paralel şəkildə, Vaşinqtonun Kambocanı da tarif siyasəti ilə ram etməsi asan bir məsələdir. Öz imkanlarını dəyərləndirən Donald Tramp məsələ ilə bağlı hər iki ölkənin baş nazirləri ilə telefon danışığı aparıb və bu danışıqlardan nikbin təəssüratlarını bölüşüb. O, sosial şəbəkə hesabında yazaraq, Kamboca və Tailandın atəşkəsin tezliklə əldə olunmasında maraqlı olduqlarını bəyan edib. D.Tramp”Truth” hesabında yazıb: “Mən indicə Taylandın baş nazirinin səlahiyyətlərini icra edən şəxslə danışdım və çox yaxşı söhbət oldu. Tayland da Kamboca kimi dərhal atəşkəs və sülh istəyir. Mən bu mesajı indi Kambocanın baş nazirinə çatdıracağam”.

Onun sözlərinə görə, Pnompen və Banqkok artıq dərhal görüşmək və atəşkəs üzərində işə başlamaq barədə razılığa gəliblər.

D.Tramp həmçinin bildirib ki, bu şərt yerinə yetirildikdən sonra tərəflərə ABŞ ilə ticarət razılaşmalarını müzakirə etməyə qayıtmaq imkanı veriləcək.

Eyni zamanda, BMT-dən də sülh çağırışları gəlib. Həmçinin Malayziya vasitəşilik təklifi ilə çıxış edib. Verilən məlumatlardan aydın olur ki, tərəflər Malayziyanın vasitəçilk təkliflərini qəbul etməyə hazırdırlar. Tailand Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nikondet Phalangkun bildirib ki, ölkəsi münaqişənin həllində Malayziyanın vasitəçiliyinə razıdır. “Əgər Kamboca problemi ikitərəfli danışıqlar çərçivəsində və ya Malayziyanın vasitəçiliyi ilə diplomatik yolla həll etmək istəsə, biz buna hazırıq. Lakin hələ belə bir sorğu almamışıq”, - deyə o qeyd edib.

“Həm Tailandın, həm də Kambocanın xarici işlər nazirləri ilə danışmaq imkanım olub. Onlar razılaşıblar ki, başqa heç bir ölkə bu işə qarışmasın. Diplomatlar Malayziyaya tam etimad göstərirlər və məndən vasitəçilik etməyimi xahiş etdilər”. Bu fikirləri isə Malayziyanın xarici işlər naziri Məhəmməd Həsən ifadə edib.

Kamboca və Tailand atəşkəs barədə razılığa gəlib. Xarici media xəbər verir ki, bunu Malayziyanın Baş naziri Ənvər İbrahim bildirib. Onun sözlərinə görə, atəşkəs 24 saat ərzində qüvvəyə minəcək. “Kamboca və Tailand bu gün yerli vaxtla gecə yarısından etibarən 24 saat ərzində qüvvəyə minəcək qeyd-şərtsiz atəşkəslə bağlı ümumi anlaşmaya nail olunub”, - baş nazir qeyd edib.

Qeyd olunub ki, hər iki ölkənin nümayəndə heyətləri arasında Kuala-Lumpurda aparılan danışıqlar bir neçə saat davam edib.

***Mübariz ABDULLAYEV***

## Kalininqrad blokadaya alına bilər

Son zamanlar NATO-nun Baltikyanı bölgədə və Polşada hərbi fəallığının aktivləşməsi müşahidə olunur. Demək olar ki, NATO həm Litva, həm Latviya, həm də Estoniyada qoşunlarının və hərbi texnikalarının sayını artırmaqdadır. Qərb KİV-lərinin məlumatına görə, artıq NATO-nun Latviyada hərbi bazasının əsasının qoyulması planlaşdırılır. Bununla paralel olaraq, NATO ixtisaslaşdırılmış AWACS tipli təyyarələrdən istifadə etməklə Rusiyanın Kalininqradda hərbi fəaliyyətini izləməyə başlayıb. Bir çox Qərb ekspertləri hesab edirlər ki, NATO-nun Baltikyanı və Şərqi Avropa bölgəsindəki hazırkı addımları Rusiyanın Kalininqrad şəhərinin blokadaya alınmasına, yəni Moskvanın bu bölgədə hərbi-siyasi mövqeyini zəifləmətməyə yönəlib. Ekspertlərin sözlərinə görə, NATO-nun Kalininqrad ətrafında hərbi manevrləri Qərb ilə Rusiya arasında kəskin qarşıdurmanın yeni və daha təhlükəli mərhələyə keçid etməsinə gətirib çıxara bilər. Qərbin siyasi və strateji çevrələrində belə bir plan qurulub ki, Rusiyaya qarşı genişmiqyaslı müharibəyə cəlb olunmadan, məhdud coğrafi ərazidə onun üzərində simvolik qələbə əldə etməkdir. Bu da, sözsüz ki, Kalininqradın blokadaya alınmasından keçir. Litva və Polşa arasında yerləşən Kalininqrad vilayətində Rusiya Silahlı Qüvvələrinin Baltik donanmasının ən böyük bazası yerləşir - bu baza Rusiyanın Avropadakı hərbi mövcudluğunun strateji səviyyədə vacib dayağıdır, eləcə də Avropanın təhlükəsizliyi üçün əsas təhdid hesab olunur. Qərb analitiklərində belə bir fikir yaranıb ki, NATO Kalininqradı Rusiyadan təcrid etməklə və ya hərbi yollarla nəzarətə almaqla Rusiyaya çox ağır psixoloji və siyasi zərbə vura bilər.

### Kalininqrad NATO üçün niyə bu qədər önəmlidir?

Məsələ ilə bağlı hərbi ekspert Telman Qasımov “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Kalininqrad yalnız Rusiya üçün deyil, həmçinin NATO üçün də strateji cəhətdən xüsusi əhəmiyyət kəsb edir. “İlk növbədə qeyd edim ki, Ukraynada müharibə başlayandan bəri Rusiyanın Baltikyanı ölkələrə - Litva, Latviya və Estoniyaya, hətta Polşaya belə təhdidləri daha da kəskinləşib. Bu təhdidlərin qarşısının alınması NATO-nun gündəliyində ən önəmli prioritetlərdən biridir. Bu gün Şimali Atlantika Alyansı Şərqi Avropa və Baltikyanı bölgədə təhlükəsizliyin tam şəkildə təmin olunması və möhkəmlənməsi üçün bir sıra planlar üzərində işləyir. Bu planlardan biri Kalininqradın mühasirəsi və bu vilayəti Rusiya ilə birləşdirən dəhlizin nəzarətə götürülməsidir - NATO-nun əsas məqsədi bu yolla Rusiyanın Kalininqrad üzərindən regionda həm hərbi-siyasi təsir imkanlarını məhdudlaşdırmaq, həm də təhdidləri ilə mübarizə aparmaqdır. Ümumiyyətlə, əgər NATO Rusiya ilə sərhəd bölgələrdə hərbi varlığını gücləndirmək və regional təhlükəsizliyi təmin etmək istəyirsə, öncə Kalininqrad problemini həll etməlidir - Kalininqradı Rusiya ilə birləşdirən Suvalki dəhlizi mütləq nəzarətə götürülməlidir. Bu dəhlizin alyansın əlinə keçəcəyi təqdirdə Rusiya bölgədəki qoşunlarını ərzaq və silah-sursatla təmin etmək imkanlarını itirəcək. Təbii ki, bu, o qədər də asan bir məsələ deyil. Amma bu istiqamətdə müəyyən addımlar atılmalıdır. Hesab edirəm ki, Kalininqrad məsələsi həll olunmalıdır, yoxsa Moskvanın bölgə üzərindən regionda təhdid xarakterli davranışları davam edəcək. Bu baxımdan yaxın zamanda Kalininqrad məsələsinə diqqətin artacağı istisna deyil. Hazırda NATO bu bölgə ətrafında qoşunlarını cəmləşdirməkdədir,” - deyə T.Qasımov vurğulayıb.

### Kalininqrad - Dünya müharibəsinə aparan yol



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov qəzetimizə şərhində bildirib ki, NATO Kalininqrad məsələsini yenidən gündəmə gətirməklə Kremlə mesaj ötürür. “NATO ilə Rusiya arasında Kalininqrad gərginliyi bir həftədir ki, gündəmdədir. Bu da ondan irəli gəlir ki, ABŞ-ın Avropa və Afrika üzrə komandirinin Kalininqrad ilə bağlı bəyanatı Rusiyada ciddi narahatlığa səbəb olub. ABŞ-ın komandiri jurnalistlərə açıqlamasında bildirib ki, istənilən zaman NATO Kalininqradı hərbi yolla nəzarətə götürə bilər. Sözsüz ki, bu, Rusiyaya bir siqnal idi. Buna görə də Moskvanın buna cavabı gecikmədi. Rusiya Dövlət Dumasının Beynəlxalq Əlaqələr komitəsinin sədri Leonid Slutski qeyd edib ki, Kalininqrada hər hansı hücum olacağı təqdirdə Moskva bütün hərbi imkanlarından, hətta nüvə silahından istifadə edəcək,” - deyə S.Zahidov vurğulayıb ki, NATO-nun Kalininqrada hücumu inandırıcı görünmür. “NATO Kalininqrada hərbi müdaxilə edərsə, bu, NATO-Rusiya müharibəsinə, daha doğrusunu desək, dünya müharibəsinə gətirib çıxaracaq. NATO-nun rəhbərliyi bunu çox yaxşı bilir, sadəcə olaraq, Moskvaya mesaj göndərir ki, əgər Rusiya hər hansı NATO ölkəsinin ərazisinə raket hücumları həyata keçirərsə, Kalininqrad alyansın ilk hədəfi olacaq”. Ekspert əlavə edib ki, Moskva hər vəchlə Kalininqradda hərbi mövcudluğunu qorumağa çalışacaq. “Kalininqradın strateji əhəmiyyəti çox böyükdür. Bu bölgədə Rusiyanın Baltik donanmasının ən böyük bazası yerləşir. Bu bazada 20 və 30 mindən çox hərbiçi xidmət edir. Moskva bu bölgəni əvvəlki dövrlərə nisbətən daha çox hərbiləşdirib. Bölgədəki bazada S-400 hava hücumundan müdafiə sistemləri və nüvə başlığına malik olan İsgəndər raketləri var. Bundan savayı, Kalininqradı Rusiya ilə birləşdirən Suvalki dəhlizini də diqqətdən qaçırmaq olmaz. Əgər Rusiya bu dəhlizi ələ keçirərsə, Baltikyanı ölkələrin NATO ilə quru təmasları tamamilə kəsiləcək. Bu amilləri nəzərə alarkən, NATO-nun Kalininqrada hərbi müdaxiləsi inandırıcı görünmür. NATO-nun Kalininqradı blokadaya alması da çox ciddi nəticələrə gətirib çıxara bilər”.

### NATO buna görə hərbi fəallığını artırıb

“Məsələ burasındadır ki, NATO Rusiyadan ciddi bir təhlükə gözləyir. Bu təhlükəni sovuşdurmaq üçün alyans Şərq cinahında qoşunlarının və hərbi texnikalarının sayını artırmağa çalışır. Ümumiyyətlə, yaxın gələcəkdə Rusiyanın NATO-ya həmləsinin baş tutacağına skeptik yanaşıram. Çünki NATO ilə müharibə aparmaq üçün Rusiyanın o qədər də iqtisadi və hərbi imkanları yoxdur,” - deyə S.Zahidov bildirib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**








# Regionlarımızın iqtisadi inkişaf dinamikası...

Regionların iqtisadi inkişafının təşviqi dövlətin yürütdüyü siyasətin prioritet istiqamətlərdən biridir. Məhz bu siyasətin həyata keçirilməsi sayəsində regionlardakı vəziyyət əvvəlki illərlə müqayisədə tamamilə dəyişib, sözün əsl mənasında yeni bir simaya malik olub. Aparılan çoxşaxəli tədbirlər regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb. Eləcə də dövlət və özəl sektor əməkdaşlığı bu istiqamətdə uğurların əldə edilməsində mühüm rola malikdir. Habelə, son dövrlərdə azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həm infrastruktur, həm də sosial-iqdisadi işlərinin həyata keçirilməsi bu iqtisadi rayonların da simasının tamamilə dəyişməsnə səbəb olmaqdadır.

## 23 milyard manat vəsait ayrılıb

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb. “Respublikamızın hər bir yaşayış məntəqəsi inkişaf proqramlarına daxil edilib, bütün regionlarda yol infrastrukturu, səhiyyə və təhsil ocaqları yenidən tikilib, region və şəhərlərin hamısı içməli su və kanalizasiya xidmətləri ilə təmin edilib. O cümlədən respublika üzrə qazlaşma 96 faizi ötüb. Elektrik enerjisinin dayanaqlı təminatı üzrə işlər həyata keçirilir. Rabitə və sürətli internet xidmətləri bütün regionlarımızı 100 faizə yaxın əhatə edir. Həmçinin son 20 ildə regionlarımızın sosial infrastrukturu müasirləşdirilib. Dövlət proqramlarının icra olunduğu 2004-2024-ci illər ərzində ümumi daxili məhsul 3,5 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 3 dəfə, sənaye üzrə 3,2 dəfə, kənd təsərrüfatı üzrə 1,9 dəfə artıb. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,6 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərin yenidən qurulması və bərpası sürətlə icra olunur. Belə ki, 2025-ci il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına 23 milyard manat vəsait ayrılıb. Bir zamanlar öz dədə-baba yurdundan didərgin düşən məcburi köçkünlər indi müasir formada inşa edilən evlərinə qayıdırlar”.



## İnvestisiyalar iqtisadiyyatı şaxələndirir

V.Bayramov qeyd edib ki, regional inkişaf proqramları çərçivəsində yerli sahibkarlığın dəstəklənməsi, təhsil və sağlamlıq xidmətlərinin inkişafı ilə bağlı tədbirlər də prioritetdir ki, bütün bu kompleks tədbirlər sosial-iqtisadi inkişafı sürətləndirir. Kənd təsərrüfatı, sənaye və turizm kimi sahələrə yönəldilən investisiyalar yerli iqtisadiyyatı şaxələndirərək daha dayanıqlı və rəqabətli edir. “Sosial-iqtisadi inkişafın təşviqi həm də əhali arasında sosial ədalətin bərpa olunmasına və həyat şəraitinin yüksəldilməsinə xidmət edir. Dövlət tərəfindən həyata keçirilən regionların inkişafı proqramları mövcuddur. Məhz iqtisadi islahatlar və sosial layihələr vasitəsilə kənd və şəhər əhalisi arasında gəlir fərqləri azaldılır. Bir sözlə, bu addımlar ölkənin ümumi iqtisadi inkişafına müsbət təsir göstərir və cəmiyyətin bütün təbəqələrini əhatə edən inkişaf modelinə zəmin yaradır”.

## Sosial inkişaf sayəsində əhalinin rifah səviyyəsi yüksəlir

Deputatın sözlərinə görə, hazırda icrası davam etdirilən növbəti dövlət proqramı azad sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə, yerli və xarici investisiyaların artmasına, müasir texnologiyaların və qabaqcıl rəqəmsal təcrübənin tətbiqinin genişlənməsinə və rəqabətədavamlı məhsul istehsalının və yeni müəssisələrin, iş yerlərinin yaradılmasına səbəb olmaqdadır. “Nəticə etibarilə regionların sosial-iqtisadi inkişafı ölkənin mono-iqtisadi sabitliyinin təmin edilməsində, ölkədə işsizlik probleminin aradan qaldırılmasında, ticarət dövriyyəsinin artmasında mühüm amil kimi prioritetliyini saxlamaqdadır”.

*Səlim*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Zolaqlı yırtıcılar...

## Pələnglərin maraqlı xüsusiyyətləri

Yırtıcı heyvanlar arasında pələnglər ən möhtəşəm, həmçinin qorxulu canlılardan biridir. Bu zolaqlı yırtıcılar təbiətdə güc, çeviklik və sürət simvolu kimi də tanınır. Onlar dünya üzrə ən böyük pişiklər ailəsinə aiddir. Bədənlərinin narıncı rəngdə olması və üzərindəki qara zolaqlar pələngləri unikal edir.

Dünyada təbii mühitdə yaşayan pələnglərin 80 faizi Hindistan yarımadasının payına düşür.100 il əvvələ qədər Hindistanda, Türkiyədə, Çində, demək olar ki, bütün Asiya qitəsində yaşayan pələnglərə hazırda keçmiş ərazilərinin 93 faizində, ümumiyyətlə, rast gəlinmir. Hazırda dünya təbiətində bir neçə min pələng yaşayır. Böyük pişiklər arasında yaquardan başqa yalnız pələng yaxşı üzgüçüdür.

Yeri gəlmişkən, bu gün Beynəlxalq Pələnglər Günüdür. Əlamətdar günün qeyd olunmasında məqsəd ictimaiyyətin diqqətini bu heyvanların nəslinin kəsilməsinə və mühafizəsi probleminə cəlb etmək və əhalini məlumatlandırmaqdır. Beynəlxalq Pələnglər Günü 2010-cu ildə Sankt-Peterburqda 13 dövlətin hökumət başçılarının iştirakı ilə pələnglərin qorunması məsələləri üzrə keçirilən beynəlxalq forumda təsis edilib.

**Sayları getdikcə azalır...**

Təəssüf ki, vəhşi təbiətdə bu heyvanların sayı son yüzillikdə getdikcə azalır. Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, XX əsrin əvvəllərində Yer üzündə təxminən 100 min pələng yaşayıb. 2014-cü ildə onların sayı 3 minədək azalıb və azalmaqda davam edir. Heyvanlar öz təbii yaşayış mühitinin 93 faizini itirib.

Bundan başqa, qeyri-leqal ticarət məqsədilə pələnglərin ovlanması onların sayının azalmasına səbəb olub. Bu heyvanlar bir sıra bölgələrdə - Yava və Bali adalarında (1960-1980-ci illərdə), Cənubi Qafqazda (1930-cu illərdə), Orta Asiyada (1960-cı illərdə) tamamilə məhv edilib. Hazırda təbiətin bu nadir canlılarının doqquz tanınmış yarımnövündən yalnız altısı qalıb.

XX əsrdə pələngin adı “itən növ” kimi Beynəlxalq Təbiəti Mühafizə İttifaqının “Qırmızı Kitabı”na, Rusiyanın, eləcə də digər ölkələrin mühafizə sənədlərinə daxil edilib.



**Bioloji quruluş**

Pələnglər iri, güclü bədən quruluşuna malikdirlər. Onların bədən uzunluğu 2.5-3 metrə, çəkisi isə 150-300 kiloqrama çatır. Əzələli və çevik bədənləri onlara ovlarını yaxından izləmək və sürətli hücum etmək imkanı verir. Pələnglərin narıncı tükləri üzərində qara zolaqlar onların təbii mühitdə görünməməsini təmin edir. Onların güclü əzələləri və iti dişləri ovlarını tezliklə öldürmək üçün adaptasiya olunub. Gecə görmə qabiliyyəti yüksəkdir və uzun quyruqları balanslarını qorumağa kömək edir.

**Fərdi xarakter əlamətlərinə malikdirlər**

Hər bir pələngin zolaqları fərqlidir və bu, təkcə kamuflyaj funksiyasını yerinə yetirmir, həm də fərdlərin identifikasiyasında kömək edir. Bir neçə il öncə aparılan tədqiqat göstərib ki, vəhşi təbiətdə əzəmətli yırtıcı heyvanlar olan pələnglər bizim yumşaq tüklü ev heyvanlarımız kimi fərdi xarakter əlamətlərinə malikdir. Gedişatında 248 Sibir pələnginin davranışı müşahidə olunan araşdırma bu nəsli kəsilən canlıların unikal xarakterik xüsusiyyətlərə malik olduğunu göstərib. Bu keyfiyyətlər heyvanların sağ qalmaq və çoxalmaq qabiliyyətinə təsir edir.

Tədqiqatın nəticələri pələnglərin sadəcə monolit növ deyil, daha çox öz fərqli xarakter xüsusiyyətlərinə malik olduğu faktını vurğulayır.

**Əzəmət və müvazinət xüsusiyyəti**

Alimlər Çində yarı azad şəraitdə saxlanılan iki pələng populyasiyasında əminlik, səmimilik, davakarlıq və vəhşilik kimi əlamətlərin öyrənilməsi üçün insan şəxsiyyət testini uyğunlaşdırıblar. Hər gün pələnglərlə işləyən baytarlar və heyvan baxıcıları 70 şəxsiyyət göstəricisindən ibarət siyahı ilə anketləri doldurublar. Nəticələr göstərib ki, hər iki pələng populyasiyası şəxsiyyət kateqoriyasına aid olan əzəmət və müvazinət kimi xüsusiyyətlərə malikdir.

“Əzəmətə” görə ən çox bal toplayan pələnglər, daha sağlam, diri heyvanları ovlamağa çox meyilli idilər, daha çox qida qəbul edir və cütləşirdilər.

Digər tərəfdən, “sabit” pələnglər daha mülayim, səmimi və sevməyə qadir sayılıb. Maraqlıdır ki, alimlər erkək və dişi pələnglər arasında o qədər də çox fərq aşkar etməyib. Bundan başqa, ata-pələnglərin valideyn vəzifələrinin yerinə yetirilməsinə köməklik etdikləri müşahidə olunub.

Bu gün bir çox ölkədə, o cümlədən Azərbaycanda, heyvanların sirklərdə istifadəsi məhdudlaşdırılıb və ya qadağan olunub. Heyvan hüquqları müdafiəçiləri zooparkların və təbii mühitin pələnglərin qorunması üçün daha münasib olduğunu vurğulayırlar. Beynəlxalq və yerli səviyyədə pələnglərin qorunması üçün müxtəlif layihələr və proqramlar həyata keçirilir. Zooparklar və heyvan bağları pələnglərin qorunmasında mühüm rol oynayır. Azərbaycanda pələnglər artıq təbii halda yaşamasa da, onların tarixi və mədəni rolu qorunmaqdadır.

*Yeganə BAYRAMOVA*

# “Bakcell”in dəstəyi ilə “YAŞAT” yay məktəbi Londonda




İnnovasiya və sürət lideri “Bakcell”in dəstəyi və “YAŞAT” Fondunun təşkilatçılığı ilə Londonda üçüncü “YAŞAT” yay məktəbi başlayıb. Yay məktəbində ölkə üzrə 9-cu sinif buraxılış imtahanlarında yüksək nəticə göstərmiş 10 şəhid övladı iştirak edir.

Proqramın əsas məqsədi şəhid övladlarının dünyagörüşünü genişləndirmək, dil biliklərini artırmaq, fərdi bacarıqlarını inkişaf etdirmək və beynəlxalq mühitdə aktiv iştiraklarına imkan yaratmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə dəstək göstərməkdir.

İyulun 20-dən avqustun 3-dək davam edəcək “YAŞAT” yay məktəbi London Universitet Kollecində təşkil olunub. Proqram müddətində iştirakçılar hər gün 3 saatlıq intensiv ingilis dili dərslərində iştirak edir, şəhər ekskursiyaları, tarixi abidələrə və muzeylərə maraqlı səfərlərlə zəngin bir təcrübə yaşayırlar.

“Bakcell” bu təşəbbüslə cəmiyyətin davamlı inkişafına töhfə verən korporativ sosial məsuliyyət (KSM) və dayanıqlılıq strategiyasını uğurla davam etdirir. Gənclərin dəyişən dünyada innovativ düşüncə tərzinin formalaşmasına və fərdi inkişafına yönəlmiş sosial layihələrə dəstək şirkətin əsas prioritetlərindəndir.

“NEQSOL Holding”in tərkibinə daxil olan “Bakcell” “YAŞAT” Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq “NEQSOL Holding” və “YAŞAT” Fondu arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan “Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. “Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# “Azercell Biznes” şirkətlər üçün yeni rəqəmsal həll təqdim edir

Bizneslərə daha effektiv və müasir müştəri xidmətləri göstərilməsi məqsədilə lider mobil operator “Müştəri Təcrübəsinin İdarə Edilməsi Platforması”nı istifadəyə verir.

Yeni platforma müxtəlif rəqəmsal kanallar (“WhatsApp”, “Instagram”, “Facebook”, SMS, veb çat və s.) vasitəsilə daxil olan müştəri sorğularını vahid mərkəzdən idarə etməyə və operativ şəkildə cavablandırmağa imkan yaradır. Bu, bizneslə müştərilər arasında ünsiyyətin səmərəli, operativ və keyfiyyətli şəkildə aparılmasını təmin edir. Platforma eyni zamanda əvvəlki yazışmaları yadda saxlamaq, real vaxtda fərdi təkliflər hazırlamaq və rəqəmsal kampaniyaları avtomatlaşdırmaq kimi üstünlüklər təqdim edir.

Platformanın süni intellekt əsasında işləyən çatbotları tez-tez verilən suallara avtomatik cavab vermək, müştəri xidmətləri komandasının iş yükünü azaltmaq və 24/7 fasiləsiz dəstək göstərmək imkanına malikdir.

Platformanın avtomatlaşdırma alətləri bizneslərə kampaniyaların effektivliyini izləmək, müştərilərinə vaxtında və hədəfə uyğun təkliflər təqdim etmək və yeni effektiv strategiyalar hazırlamaq imkanı verir.




Yeni platforma “Salesforce”, “HubSpot” və s. kimi tanınmış CRM sistemləri ilə rahat inteqrasiya edilir. Sorğu və iş axınının effektiv idarə edilməsi, sürətli cavablama üçün hazır şablonların istifadəsi həllin daha bir üstünlüyüdür.

“Azercell Biznes”in təqdim etdiyi “Müştəri Təcrübəsinin İdarə Edilməsi Platforması” bizneslərə rəqəmsal xidmət səviyyəsini yüksəltmək və müştəri məmnuniyyətini artırmaq üçün yeni imkanlar açır.

Ətraflı məlumat üçün: Müştəri əlaqələrini bütün kanallarda gücləndirin! | Məşhur tətbiqlər sərfəli abunəlik şərtlərilə

## Allah rəhmət eləsin!

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin kollektivi fakültənin dekan müavini Şükürov Nəsib Heybət oğluna atası
**ŞÜKÜROV HEYBƏT ŞƏRİF OĞLUNUN**
vəfatı ilə əlaqədar başsağlığı verirlər və mərhumun ailəsinə səbr diləyirlər.

## Allah rəhmət eləsin!

Akif Rəsulov, Abbas Atakişiyev, Nihat Zeynallı, Nazim Həsənov, Rafis Rəhimov, Mahir Məmmədov, İsmayıl Rəsulzadə
Şükürov Nəsib Heybət oğluna atası
**ŞÜKÜROV HEYBƏT ŞƏRİF OĞLUNUN**
vəfatı ilə əlaqədar başsağlığı verirlər və mərhumun ailəsinə səbr diləyirlər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4432**
**Sifariş: 1599**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova